**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanın rekreasiya ehtiyatları: istifadə problemləri və həll yolları” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Hüseynov Sərxan Elxan**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**____________________ imza**

**“____” _______ 2019 -cu il**

**“Azərbaycanın rekreasiya ehtiyatları: istifadə problemləri və həll yolları” mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060404 “İqtisadiyyat”**

**İxtisaslaşma: Turizmin iqtisadiyyatı**

**Qrup: 80**

**Magistrant:**

**Hüseynov Sərxan Elxan**

**____________________ imza**

**Elmi rəhbər:**

**c.ü.f.d., dos. Bayramli Qadir Nəzər**

**________________________imza**

**Proqram rəhbəri:**

**i.ü.f.d, b.m Hümbətova Suqra İnqilab**

**____________________ imza**

**Kafedra müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**___________________ imza**

**BAKI – 2019**

**Azerbaijan's recreation resources: use problems and solutions**


**Abstract**

**Since ancient times, our journey has been one of the important elements for our society. This sector, which is now known as Tourism, is increasing its weight in the Economy. Therefore, the continuous development of this sector is economically, socially and politically important for each country.**

**Measures are being taken by the state to develop tourism in Azerbaijan over time. I wrote a dissertation entitled "Azerbaijan's Recreational Resources: Usage Problems and Solutions". It consists of 3 chapters, results and suggestions, a list of literature and supplements.**

**I gave my dissertation my classification in chapter I titled "The place and role of recreational resources in tourism" on recreation types, as well as the recreational resources available in Azerbaijan.**

**In the first chapter, which I described as "the socio-economic aspects of tourism development and the types of tourism in the Republic of Azerbaijan" in the first chapter, I talked about the methodological basis of tourism potential assessment and recreational potential of the regions. In the other part, I have informed the main types of tourism in our country.**

**In Chapter III, "The Problems of Using Recreational Resources in Azerbaijan", I mentioned recreation resources in particular economic regions of Azerbaijan. I also talked about the problems that arise in the utilization of existing potentials and ways out of these problems.**

**In the section called the Conclusion and Proposal, I have talked about the savings we came to the conclusion. In this section, I've mentioned some of the elements that might hinder the development of tourism in our country.**



**Key words: Tourism, recreation, potential, reserve**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **BTM** | Beynəlxalq Turizm Müəssisələri |
| **DTT** | Dünya Turizm Təşkilat |
| **SYX** | Strateji Yol Xəritəsi |
| **TRE** | Turizmin Rekreasiya Ehtiyatları |
| **TRZ** | Turizmin Rekreasiya Zonaları |
| **TMMB** | Turizm Milli Məlumat Bürosu |
| **UNESCO** | United Nations Educational, Scientific and Cultural Organization |
| **CLIA** | Cruise Line International Association |
| **SES** | Su Elektrik Stansiyası |
| **MR** | Muxtar Respublika |

## MÜNDƏRİCAT

**GİRİŞ.........................................................................................................8**

**I Fəsil REKREASİYA EHTİYATLARININ TURİZMDƏ YERİ VƏ ROLU**

**1.1. Təbii Rekreasiya Ehtiyatları..........................................................................11**

1.1.1 İqlim……………………………………………………………………....12

1.1.2 Flora və Fauna……………………………………………………….……14

1.1.3 Landşaft……………………………………………………..……………15

1.1.4 Hidroloji ehtiyatlar və çimərliklər……………..………………………….16

1.1.5 Meşə ehtiyatları……………………………………..…………..…..21

**1.2.Tarixi-mədəni rekreasiya ehtiyatları...............................................................23**

1.2.1 Qalalar……………………………………………………………………..23

1.2.2 Muzeylər…………………………………………………………………..27

1.2.3 Tarixi binalar və dini obyektlər………………………...………….....30

1.2.4 Milli irs…………………………………………………………………....33

**II Fəsil TURİZMİN İNKİŞAFININ SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ VƏ AZƏRBAYCANDA OLAN BAŞLICA TURİZM NÖVLƏRİ**

**2.1 Turizmin sosial-iqtisadi mahiyyəti və Azərbaycan iqtisadiyyatında rolu......36**

2.1.1Turizm potensialının qiymətləndirilməsinin metodoloji əsasları...................... .37

2.1.2Turizmin regional potensialı……………………………………...………....41

2.1.3Turizmə xidmət edən sahələr………………………………….……………44

**2.2 Azərbaycanda İnkişaf Etmiş Başlıca Turizm Növləri....................................50**

2.2.1Ekoturizm........................................................................................................50

2.2.2 Dini turizm....................................................................................................51

2.2.3 Idman turizmi.................................................................................................52

2.2.4 Balneoloji turizmi (Sağlamlıq Turizmi)...........................................................54

2.2.5 Aqro-kənd turizmi...........................................................................................55

2.2.6 Çimərlik turizmi..............................................................................................56

2.2.7 Ov turizmi.............................................................................................................57
**III Fəsil AZƏRBAYCANDA REKREASİYA EHTİYATLARINDAN İSTİFADƏ PROBLEMLƏRİ**
3.1.Azərbaycanın iqtisadi rayonlarının turizm-rekreasiya ehtiyatları………...…......59
3.2.İqtisadi Rayonlarda Olan Rekreasiya Ehtiyatlarında İstifadə problemləri və həll yolları………………………………………………………………………....…78
**NƏTİCƏ VƏ TƏKLİFLƏR**................................................................................... 83
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT..................................................................85**
**ƏLAVƏLƏR**..............................................................................................................88
Cədvəllərin siyahısı.........................................................................................................89

# GİRİŞ

**Mövzunun aktuallığı**: Respublikamızın gündən-günə inteqrasiyasındakı və sosial iqtisadi inkişafındakı mühüm amillərdən biri turizm sektorudur. Ölkəmizin müasir inkişaf problemlərinin həlli yolları, dünyanın vahid iqtisadi birliyində məqsədə uyğun iştirakı və respublikamızda mövcud olan resurslardan faydalı şəkildə istifadə edilməsi turizmin ətraflı inkişafını tələb edir. Eyni zamanda, Azərbaycan da sosial bazar iqtisadiyyatının təşəkkülü prosesi turizm mühitinin zahiri formalarının yaranmasını zəruri edir. Ölkəmizdə bir çox başqa sahələr kimi turizm sahəsinə də geniş önəm verilməkdədir. Bu nöqteyi-nəzərdən ölkədə bu sektorun ətraflı şəkildə tədqiq edilməsinə və öyrənilməsinə ehtiyac duyulur. Azərbaycanda turizm sektorunun əsaslı inkişafını səciyyələndirən ilkin arqumentlər aşağıdakılardır :

- Turizm fəaliyyəti Azərbaycan iqtisadi mühitinin tərəqqisinə təkan verən mühüm istiqamətlərdəndir.
- Azərbaycanda bu sahənin inkişafı üçün mümkün coğrafi mühit, biomüxtəliflik, münasib landşaft, müvafiq iqtisadi şərait və başqa bir sıra amillər mövcuddur.
- Ölkəmizə gələn xarici turist axınının cəlb edilməsi yönümlü görülən işlərin dövlət tərəfindən mühüm sərmayələrlə dəstəklənməsi

Tədqiqat prosesində bütün bu göstərilən aspektlər əsas götürülərək respublikamızda turizm-rekreasiya ehtiyatlarının mövcudluğunu nəzərə alaraq adı çəkilən sahənin inkişafına şərait yaratmaq lazımdır. Bundan əlavə hələki kəşfi edilməmiş turizm zonalarının olması, rekreasiya ehtiyatlarından lazımlı şəkildə istifadə edilməməsi kimi problemlərin araşdırılması tədqiqatın nə dərəcədə aktual olmasını bir daha təsdiq edir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Azərbaycan Respublikasında turizm bölməsi üzrə aparılan tədqiqatlara baxdıqda onların çox hissəsinin coğrafi nöqteyi nəzərdən araşdırıldığı müəyyən olunur. Onu da qeyd etməliyik ki, araşdırma aparacağımız bu mövzu iqtisadiyyatın vacib olan ünsürlərindən sayılır. Dissertasiya işi turizmin sosial-iqtisadi səmərəliliyini, eləcə də ölkəmizin iqtisadi inkişafını təmin

etmək strategiyasında mühüm sayıla bilər. Çünki bu sahədə bir sıra çatışmazlıqlar var. Buna görə də qeyd olunan problemlərdən nəticə çıxarmaq və lazımı plan seçmək iqtisadiyyatımız üçün uğurlu sayıla bilər. Turizm sferasında rekreasiya ehtiyatları və onlardan istifadə istiqamətində yazı işlərinə bir çox yerli və xarici alimlərinin əsərlərində rast gəlinir. Azərbaycan alimlərindən H.B.Soltanova, Ə.Q.Əlirzayev, V.S.Dərgahov, Müseyibov M.A, Budaqov B, B.Ə.Bilalov, və b., xarici alimlərdən isə Babkin A.V, Artyomova E.N və Kozlova V.A, I.T Balabanov və digərləri qələmə aldıqları əsərlərdə turizmin sosial-iqtisadi mahiyyəti, növləri, bu sektorda çatışmazlıqlar, onu iqtisadiyyatda yeri və rolu, turizmin inkişaf amilləri və bu kimi istiqamətlərdə nəzəri-metodoloji, praktiki problemlərin tədqiqinə geniş bölmədə yer vermişlər.

**Tədqiqatın məqsəd və vəzifələri:** Aparılan tədqiqatın əsas məqsədi Azərbaycanın regionlarında turizm potensialın məqsədəuyğun şəkildə istifadəsinə turizmin və rekreasiya amillərinin sosial-iqtisadi bazar da rolunun müəyyən olunmasına, bölgələrdə turizmin müasir inkişafını dəstəkləyən yönümlü tədbirlərin aparılmasına yönəlmişdir. Bütün bu işlərin həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini lazımlı edir:

- Turizmin inkişafını səciyyələndirən təbii, antropoloji cəhətləri müəyyən etmək və qanunauyğunluqları tədqiq etmək.
- Ölkəmizdə turizmin tarixi inkişaf dövrlərini və ənənələrini elmi-nəzəri aspektlərlə müəyyən etmək.
- Azərbaycanın turizm - rekreasiya potensialını aşkarlamaq və ondan səmərəli istifadəni gərəkdirən təklifləri irəli sürməsi
- Turizm zonalarının formalaşmasının müqayisəli xüsusiyyətlərini göstərmək

**Tədqiqatın obyekti və predmeti**: Dissertasiya işində araşdırılan regional turizm-rekreasiya ehtiyatları və amilləri, bölgələr üzrə turizm mərkəzlərinin tikilməsi və inkişafına yönəlik proseslərdə sosial-iqtisadi, siyasi və təşkilati amillərin aşkar

olunması və həyata keçməsini şərtləndirən istiqamətlərin müəyyən edilməsi isə tədqiqatın başlıca predmetidir.

**Tədqiqat metodları:** Dissertasiya işi yazılması prosesində müşahidə, müqayisə, riyazi-statistik, qruplaşdırma, SWOT təhlil üsullarına da müraciət edilmişdir.

**Tədqiqatın informasiya bazası**: Azərbaycan Respublikası Dövlət Statistika və Gömrük Komitələrinin bülletenləri, Mədəniyyət və Turizm Nazirliyinin statistik məcmuələri, materialları, Beynəlxalq Turizm təşkilatlarının hesabatları, Kitabxana arxivinin materialları, fərqli turizm müəssisələrinin press-relizləri, xarici və yerli turizm təşkilatlarının hesabatları və istifadə olunmuş ədəbiyyat siyahısındakı kitabların araşdırılmaları əsasında tədqiqatın informasiya bazası təşkil edilmişdir.

**Tədqiqatın məhdudiyyəti:** Dissertasiya işini tərtib edərkən informasiya, təhlil metodları baxımından bır sıra çətinliklər yaşanmışdır ki, bu da nəticə bölməsində öz əksini tapmışdır.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Tədqiqatın başlıca nəticəsi olaraq Azərbaycan da və eyni zamanda bölgələrdə turizm-rekreasiya mənbələrinin aşkarlanması və eləcə də turizm mərkəzlərinin təşkilinin nəzəri-metodiki və təcrübi prinsipləri sistemləşdirilmişdir. Təklifi irəli sürülən yeni metod və tövsiyələrdən ölkəmizdə və onun bölgələrində turizm-rekreasiya potensialından məqsədəuyğun şəkildə istifadə olunmasını, turizm komplekslərinin inkişaf strategiyasının işlənib, ərsəyə gəlməsində istifadə etmək olar.

**İşin həcmi və strukturu:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təklif, əlavələr, cədvəllər, olmaqla 90 səhifədən ibarətdir.

## I Fəsil REKREASİYA EHTİYATLARININ TURİZMDƏ YERİ VƏ ROLU

### 1.1. Təbii Rekreasiya Ehtiyatları

Rekreasiya-turizm ehtiyatı tükənməyən olub təbii, sosial- iqtisadi, anropogen (tarixi-mədəni) resurslara bölünür. Onlar əsasən iqlim, tarixi-arxitektur, mədəni, irsi təbii nümunələri özündə əks etdirir. Funksional görnüşünə görə isə xüsusən sağlamlıq-müalicə, idman, istirahət, dərketmə kimi məqsədlərə istifadə edilir. Turizm ehtiyatlarına təbiət abidələri, obyektləri, iqlimin müxtəlifliyi, landşaft ekzotikliyi, milli parklar və bu kimi ünsürlər daxil edilir. Aşağıdakı cədvəl vasitəsilə təsnifat verilmişdir (www.arxiv.mtk.az/content).

**Cədvəl 1. Turizm-Rekreasiya ehtiyatlarının təsnifatı**




**Mənbə:** http://www.arxiv.mtk.az.

Göstərilən potensialdan ölkəmizdə olan hissələri barəsində geniş məlumat verək.

### 1.1.1. İqlim

Təbii rekreasiya ehtiyatlarına isə əsasən iqlim, landşaft, hidreloji, flora və fauna, meşə və digərləri daxildir. Azərbaycanın iqlimi çox müxtəlifdir.Ərazimizi analiz edəndə görmək olar ki, bölgəmiz daha çox subtropik zonaya uyğun gəlir. Bu qədər zəngin sayıla bilən iqlim formalarının yaranmasına əsasən ölkəmizin coğrafiyası, topoqrafiya və Xəzər dənizi təsir edir.Hündür yüksəklik zonasının güclü təsirindən ötəri ölkənin ərazisi hava şəraitində olduqca heterogendir (cəmi 9 təbii-iqlim zonası var). Düzən ərazilərdə orta yanvar temperaturları (+5°C) və (-24°C) olur. Mütləq maksimum və minimum temperatur göstəricisinə isə Naxçıvan iqtisadi rayonunda (+44°C), (-32°C) rast gəlinir. Temperaturun illik amplitudu rekordu isə yenə də bu bölgəyə məxsusdur 60° C-dan çox olur.

Dünyada var olan 13 iqlim formasından yalnız 2-si Azərbaycandadır:

1) Mülayim isə 35 %-ni 2) Subtropik ölkənin 65 %-ni əhatə edir.

Azərbaycan iqliminin böyük müxtəlifliyi iqlim əmələgətirən amillərin xarakteri ilə bağlıdır. Ölməmizdə mpvcud olan iqlim tipləri göstərilmiş olan iki qrupa daxil edilir ( M.A.Müseyibov,1998:s 113).

1. Yarımsəhra eləcə də quru çöllərin iqlimi xüsusən Mərkəzi Aran, Xəzər zonasının Samur çayının başından Qızılağac çayına, Talış oylalarının Priaraz ovasına (1000 metr) olan sahəni tutur. İl ərzində olan yağış buxarlanmanın 10-15% -ni təşkil edir. Qış adətən isti hava ilə xarakterizə olunur. Yaz isti, yay isə dəhşətli istilərlə xarakterizə olunur, bəzi günlər temperatur hətta 40° C-dən artıq olur.
2. Qışı quraq olan mülayim-isti. Bu tipə Böyük Qafqaz dağlarının cənub alçaqlığında dağlıq zonada (əsasən 1000 metrədək yüksəklikdə), Qanıx-Əyriçay çökəkliyi üzrə (200–500 m), həmçinin Kiçik Qafqazın şimal, şərq yamacları boyunca (400–1500 metr arası hündürlükdə) əhatələnmişdir. Bu

ərazidə illik yağıntı mümkün olcaq buxarlanmanın təqribən 10-15%-ni təşkil edir. Xüsusən Qışı yumşaq, çox olmayan yağıntılı, yayı isə mülayim-istidi sayılır.

3. Yayı quraq sürən mülayim-isti.Buraya, Lənkəran-Astara zonası aid edilir. İl ərzində olan yağıntı mümkün olan buxarlanmanın 10-15%-ini ,bızi hallarda bundan da çox hissəsini təşkil edir.Yay fəsli mülayim-isti, quraq, qışı isə adəti üzrə yumşaq, payızı isə çox yağıntılı keçə bilir. Maydan avqustun sonlarına qədər yağış az düşür və tez-tez quraq olur, süni suvarma sistemi həyata keçirilir.
4. Qışı quraq hökm sürən soyuq iqlim. Xüsusən Böyük Qafqazın Şərq-şimal yamacında çox da geniş olmayan (1000–2700 m) və bununla yanaşı Kiçik Qafqazda əsasən orta və yüksək dağlıq (1400–2700 m) nahiyyədə görmək mümkündür. İllik yağıntıya gəldikdə isə mümkün olan buxarlanmanın 75-100%-ni əhatə edə bilir. Yayı çox zaman sərin, qışı digər aylarla müqayisədə nisbətən az sərt keçir.
5. Yayı quraqlı olan soyuq. Bu forma əsasən Naxçıvanın orta və yüksək dağlıq ərazi sayılan yerləri (1000–3000m) əhatələndirir. İl boyu regionda yağıntı cəmi buxarlanmanın 50-dən 100%-ə qədərini özündə cəmləşdirir. Qışı əsasən soyuq və qarlı olur, yayı isə sərindir.
6. Yağıntısı bərabər formada paylanan mülayim-isti tipə isə Böyük Qafqazın cənub ( təqribən 600–1500 m) və şimal-şərq ətəklərində isə (200–500 m) rastlanılır. Adətən dağ meşələri üçün səciyyəvi sayılır. İlıik yağan yağış ümumi nəmlənmənin cənub yamacda 75-96%-i, şərq-şimal nahiyədə 50-100%-ini təşkil edir. Qış günləri yumşaq, yayda isə mülayim-isti xarakterikdir.
7. Bütün fəsillərdə bol yağıntı ilə müşayət olunan soyuq iqlim. Onu qeyd etmək lazımdır ki,yalnızca Azərbaycanın şimalını əhatə edən dağın cənub yamacına (1500–2700 m) görə uyğun mövqeyə sahibdir. Yüksək meşə, subalp, alp hissələrini tutur. İl ərzində ərazi üzrə yağıntı miqdarı mümkün olan

buxarlanmadan təqribən 150-200% çoxdur. Adıçəkilən ərazidə qış soyuq, yay fəsli sərindir.

8. Dağlıq tundra əsasən Böyük, Kiçik Qafqazın təxminən 2700 m-dən başlayır. Naxçıvan Muxtar Respublikasının 3200 m-dən də yüksək ərazilərini əhatələndirir. Statistik gstəricidə yağış miqdarı rütubıtdən 100-200% çoxdur. İsətliən halda yay və qış fəsli soyuq keçir.

Orta illik temperatur dağlarda (+15° C)-dən (-13° C)-yə qədər dəyişir. Orta iyul istiliyi düzənliklərdə (+29° C)-dən (-2 ° C)-yə qədər dəyişir. Yayın ən sərt ayında (yanvar) düzən yerlərində orta aylıq hava istiliyi (0°C)-dən aşağı düşmür. Azərbaycan Respublikası ərazisinə görə qeyri-bərabər paylanmışdır: Belə ki, düzənliklərdə (Bakı ərazisi də daxil olmaqla 200 mm-dən də kiçik), Kür-Araz oylağının mərkəz və şərq, eləcə də Samur-Dəvəçi düzən ərazinin cənub-şərq nahiyəsi, Naxçıvanın Arazboyu, eləcə də Qobustan və Abşeron yarımadasının köklü nahiyələrində il üzrə yağıntıların həcmi 300 mm-dən də az olur. Dağlarda yağıntılar əsasən müəyyən hündürlüyə (Böyük, Kiçik Qafqazda 2600–2800m, Naxçıvanda 2600–3000 m, Talış bölgəsi üzrə isə 200–600 m-dək ) çoxalır, daha sonra tədricən azalır. Qeyd olunan yerlərdə illik yağışın ən üstün miqdarı Baş Qafqazın cənub ətəyində 1400–1600 mm, şimal- şərq yamacına doğru 800 mm, Balaca Qafqaz və Ordubad, Culfa-da 800–900 mm, Lənkaran dağlarında isə adətən 1700–1800 mm arası təşkil edir. Yağıçın ən çox gündəlik norma üstünlüyü Azərbaycanın şimal dağlıq ərazisinin cənubunda (148 mm, Əlibəy), Talış dağlıq ərazinində (334 mm, Bələsər) olaraq bilinir. Respublikanın ərazisində orta illik külək sürəti 5 m/s təşkil edir ki, bu da nisbi göstəricidir. Çünki Abşeron yarımadasının sahilyanı ərazilərində bu rəqəm 6-8 m / s arasında dəyişir. Burada çox zaman sürəti 15 m / s artıq olan günlərin sayı 145-dir. Ancaq ki, bu göstərici o qədər də unikal sayılmır. Çünki əsasən Bakı şəhərini əbəs yerə küləklər şəhəri adlandrmayıblar. Burada əsasən xəzri və gilavar adlı formalar hökmranlıq edir. Bu amil isə iqlimə təsirsiz ötüşmür.

### 1.1.2. Flora və Fauna

Zəngin flora və Faunaya sahib sayılan Azərbaycan dövləti Allahın bizə bəxş etdiyi bu gözəlliklərin bitib-tükənməməsi üçün bir sıra islahatlar həyata keçirmişdir. Bunların içərisində ən vacibi isə qoruq və yasaqlıqların, eləcə də milli parkların tərtib edilməsidir. Respublika ərazisi üzrə 9 adda milli park, 19 yasaqlıq, 13 sayda qoruq, yaşları 100-dən artıq 2083 ağac, 37 geoloji, paleontoloji sahələr və 15 min hektardan da artıq endemik və bir o qədər də qiymətli sayılan meşə sahələri vardır. Bundan əlavə Qobustan dövlət tarixi-bədii qoruğu və Bakı Dənizkənarı Milli Park ərazisi (80 hektardan artıq) fəaliyyət göstərir.

Fauna anlayışından fərqli olaraq heyvanlar aləmi dedikdə onların növ tərkibi ilə yanaşı fərdlərin sayı da nəzərə alınır. Azərbaycan Respublikası ərazisində təbii şəraitin müxtəlifliyi ilə əlaqədar onun heyvanlar aləmi də çox rəngarəngdir. Respublika ərazisində 97 növ məməli, 357 növ quş, 67 növ amfibi və reptili, 1 növ dəyirmiağız, 97 növdə olan balıq, 15 mindən daha çox onurğasız heyvan növü məlumdur. Azərbaycan Respublikasının "Qırmızı kitab"a 108 növ heyvanın adı daxil edilmişdir. Onlardan 14 növü məməli, 36 növü quş, 13 növü sürünən və suda-quruda yaşayan, 5 növü balıq, 40 növü həşəratdır. İl ərzində Azərbaycanda növlərin 40%-i yaşayır, qışda isə 27%-i yaşayır (https://az.wikipedia.org).

Ölkənin su vahidlərində və Xəzərdə balıqların 97-dən çox növü mövcuddur, onlardan 15-dən artığı onurğalı olmayan növlərdir. Onu da qeyd etməliyik ki, dünyada mövcud olan 3500-dən artıq ilan tipinfən ancaq 410-a qədəri zəhərli onlardan isə ancaq 232 növü təhlükəlidir. Azərbaycanda mövcud olan 28 növ ilanlardan 22-si zəhərsiz, bunlardan cəmi 6 tipi isə insanın həyatı üçün təhlükəli sayılır. Azərbaycan florasında yalnız bu bölgədə yetişən və nisbətən kiçik ərazilərin xüsusiyyətlərinə malik təxminən 240 endemik növ kifayət qədərdir. Balıqların əksəriyyəti Kür çayına, ətrafdakı göllərə və Mingəçevir su anbarına düşür. Ən qiymətli balıqlar somon, beluqadır. Nərə balığı bunlar içində çox qiymətlidir. Bundan əlavə, Azərbaycanın su hövzələrində bibər, sazan, rutilus qutum və s. kimi qiymətli

balıq növləri vardır. Xörək balığı kimi balıq növləri Xəzər dənizində tutulur. Azərbaycanda 107 məməli növü qeydiyyata alınmışdır.

### 1.1.3. Landşaft

Ölkəmizdə əsasən iki növ relyef üstünlük təşkil edir: dağlıq və yüksək dağlar və düzənlik. Rəsmi statistikanın bizə veriyi məlumatlara əsasən okean səviyyəsindən aşağıda olan ərazilər respublikanın ümumi ərazisinin 18%-ni təşkil edir, 0-dan 200 m-ə qədər olan ərazilər 24%, 200-500 m 15.5%, 500-1000 m 15.5%, 1000-2000 m 19, 5%, 2000-3000 m 6.5%, 3000 metrdən yuxarı isə 1% təşkil edir. Orta hündürlük 384 metrdir. Azərbaycan Respublikası ərazisinin təxminən 60%-i dağlıqdır. Torpaq hündürlüyü 26,5 metrdir, orta yüksklk isə 657m-dir. Ölkə ərazisində tektonik, vulkan, pseudo-vulkan, nival-glacial, təkamül, gravitasiya, fluvial, arid-denudasiya, aiol, karst, talassogen və digər mənşəli növlərin relyeflərə rast gəlmək mümkündür.

Landşaft vahidləri əsasən sinif →yarımsinif →tip →yarımtip →növ ardıcıllığı ilə təsnifləşdirilir, Düzənlikdə üfüqi, dağlarda isə şaquli zonallığa uyğun olaraq dəyişir. Düzənlikdən hündürlüyə doğru yarımsəhra →quru çöl →dağ meşələri →subalp və alp dağ çəmənlikləri →subnival və nival komplekslər bir birini əvəz edir. Landşaft qurşaqlarının geniş yayıldığı Böyük və Kiçik Qafqaz dağlarında; dağ çölləri → dağ meşələri → dağ çəmənləri → qayalıq – nival (https://kayzen.az).

### 1.1.4. Hidroloji ehtiyatlar və çimərliklər

Hidroqrafik şəbəkəyə aid edilən əsas su məntəqələri–göllər, çimərliklər, çaylar və su anbarları regionumuzun müxtəlif rayonlarında qeyri-bərabər şəkildə paylanılıb. Buna misal olaraq, Abşeron-Qobustan zonasında su şəbəkəsinin sıxlığı 0,20-dən 0,84 $km/km^2$-ə kimi (çoxluq hissə Lənkərana tərəf) dəyişir, orta sıxlıq təqribən 0,36 $km/km^2$.

Ümumilikdə 8359 çay vardır. Onların 5141-i Kür, 1177-si Araz hövzəsinə daxildir. Bunlardan 850-dən çoxunun uzunluğu 10 km-dən artıq, ikisi isə 500 km-dın

daha uzun məsafəyə uzanır. Yalnız 24-ə qədərinin uzunluğu 100 km-dən artıqdır. Eləcə də 324-nün uzunluğu 11-100 km arasındadır, lakin əksəriyyətinin sahəsi 10 km-dən azdır (http://eco.gov.az/azi).

Azərbaycanda çaylar üç qrupa ayrılır:

- Kür Hövzəyə aid çaylar ( Qanıx, Qabırrı, Türyan, Akstafa, Şəmkir, Tərtər və s.)
- Araz hövzəsinə aid olan çaylar (Arpa, Naxçıvançay, Oxçu, Akera, Köndələn və s.)
- Birbaşa olaraq Xəzər dənizinə axan çaylara isə ( Samur, Vəlvələ, Qudyal, Viləş, Lənkaran) aiddir.

Qafqazın ən yekə çay şəbəkəsi olan Kür və Araz çayları suvarma və hidravlikin əsas mənbələrdir. Respublikanın çay sistemi əsasən 3 qrup çaylardan ibarət olur. Bunlara yerli, transsərhəd və sərhəd daxildir edilir. Transsərhəd dedikdə 2 və daha çox ölkənin ərazisindən keçən çaylar Kür, Arpaçay, Qanıx, Qabırrı və başqaları aid olunur.

Su toplayıcının (hövzə yaratma) xüsusiyyərinə, sululuğuna görə ölkəmizdə iki çay (Kür və Araz) fərqlənir, 12-si orta, yerdə qalanlar isə kiçik çaylar kimi göstərilir.

Kür çayı öz başlanğıcını Qızılqaya dağının şimal-şərq yamacında maksimal yüksəkliyi 2,740 metr olan ərazidə yerləşir. O, Gürcüstan ərazisindən keçərək Azərbaycanın ərazisinə daxil olur və ölkəmizin əsas su arteriyası, mənbəyi sayılır. Oradan da Kür-Araz ovalığından axaraq Xəzər dənizinə tökülür. Onun ümumi uzunluğu 1515 km, Respublikazın ərazisində isə 906 km-dir. Hövzə sahəsi 188 min kvadrat kilometrdir (bunun da 31%-i yəni 58 min $km^2$-i ölkəmizin payına düşür. Adıçəkilən çayın üzərində Mingəçevir, Şəmkir və Yenikənd su anbarları, barajlar, hidroelektrik stansiyalar tikilmişdir. Mingəçevir su anbarından Qarabağ və Şirvan kanalları boyunca xeyli geniş yerlər suvarılır. Yerli çaylardan ancaq dördünü (Pirsaat, Tərtər, Həkəri, Kürəkçay) orta gursulu hesab hesab etmək olar.

Araz çayı Türkiyədəki Bingöl adlanan yerdən öz başlanğıcını götürərək Sabirabad şəhəri yaxınlığında (Suqovuşan kəndi) Kür və onun sağ qolunu əhatə

edir.Azərbaycanın hidroloji ehtiyatı baxımından 2-ci çayı sayılır. Uzunluğu 1072 km, hövzəsi 102 min kvadrat kilometrdir, ümumi su toplayıcı sahəsi 102000 $km^2$-dir (onun da 18750 $km^2$ yəni 18%-i bizim payımıza düşür). Bunun da bizim ölkəmiz üçün böyük üstünlüyü vardır, çünki bekə çaylar şirin və bolsulu olduğundan suvarmada, məişət işlərində, enerji əldə olunmasında çox geniş istifadə edilir.

Çaylar əsasən qar və yağış suları ilə qidalanırlar. Naxçıvan MR bölgəsi üzrə bir sıra əhəmiyyətli adlar çəkmək olar. Bunlara: Əlincəçay, Gilançay, Ordubadçay, Naxçıvançay və s. aitdir. Bu zonadan keçən Əkəriçay, Oxçuçay və Arpaçay Araz-la qovuşur.

Ölkəmizdə say etibarı ilə 450-yə yaxın göl yerləşir. Onların ümumi sahəsi təxminən 395 $km^2$-dir. Ümumiyyətlə Respublikamızda rast gəlinən ehtiyatları 7 hissə üzrə təsnifləşdirmək olar:

- Buzlaq mənşəlli (Murovdağ, Şahdağ, Bazardüzü və b.) daha yüksəkdə yerləşirlər;
- Daşqın təbiətli (xüsusən Kür çayı hövzəsinə aid-Hacıqabul ,Sarısu, Mehman, Ağgöl və s.);
- Baraj tipli göllər (Kiçik Qafqazda əsasən Göygöl, Maralgöl, Ağgöl, Qaragöl);
- Dənizkənarı sahəsi üzrə (Xəzər dənizinin sahil zonasında-Gümüşovan, Ağzibirçala və s.);
- Karst mənşəlli (Qobustan, Acınohur, Ceyrançölda yerləşir);
- Sürtkən gölləri ( Sumqayıçay, Girdimançay ,Açıqçay və digər);
- Abşeron yarımadasında-Masazır, Böyükşor, Kürdəxanı, Gəncəgöl və bu kimi relikt mənşəli (http://eco.gov.az ).

Sarısu Azərbaycanın böyük gölüdür (həcmi 59,1 mln. $m^3$,sululuq sahəsi 65,7 $km^2$ ) və o Kür-Araz yaylasında yerləşir.

Xəzər dənizi dünyanın böyük sayılan quru göllərindəndir, Azərbaycan xalqının həyat səviyyəsində mühüm rol oynayır və fiziki və coğrafi xüsusiyyətləri baxımından

unikaldır. Qeyd etmək lazımdır ki, Xəzər florası və faunası endemik növlərə malikdir. Beləliklə, dünyanın digər növlərindən fərqli olaraq, balıq növlərinin 90% -i bu dənizdədir. Hal-hazırda dəniz səviyyəsindən 26,75 m aşağı səviyyədədir. Bu dəniz səviyyəsində səth sahəsi 392,600 km², suyun həcmi isə 78,648 km3 təşkil edir ki, bu da göl sularının ümumi sayının 44%-ni təşkil edir. Ölkəmizdə mövcud olan təxminən 300 çamur vulkanının 170 saydan çoxu Xəzər dənizinin Azərbaycan sektorundakı ada və sualtı vulkanlarıdır.

Azərbaycanın çox hissəsində iqlim qurudur. Quru iqlim şəraitində suvarma sahələrini genişləndirmək və üzümçülük və bağlara su vermək,həmçinin çayın axışını tənzimləmək üçün ümumi həcmi 19 milyard kubmetr və həcmi 10 milyard m³ həcmində 60-dan artıq su anbarı yaradılmışdır. Ümumilikdə götürdükdə isə ölkəmiz 140 su tutucusuna malikdir və ümumi həcmi 21,5 km3-dir. Kompleks məqsədlər üçün yaradılmış statuarlara Mingəçevir, Şəmkir , Yenikənd, Varvara, Sərsəng Araz və s aiddir (M.A.Müseyibov,1998:s.191 ).

Respublikanın ən böyük su anbarı olan Mingəçevir 1953-cü ildə istifadəyə verilmişdir. Onun sayəsində əsasən Kür çayının axım sistemi tənzimlənib və subasma hallarının qarşısı demək olar ki, alınıb. Mingəçevir su elektrik stansiyasının elektrik qabiliyyəti 401,6 meqavat təşkil edir. Mingəçevir su anbarının bəndində ümumi gücü 371 min kvt olan altı ədəd hidroaqreqatdan ibarət su-elektrik stansiyası (SES) tikilmişdir. Hazırda Mingəçevir su anbarının balıq faunası 35 növdən ibarətdir. Ölkəmizin əsas sayılan su tutucularının statistik göstəriciləri aşağıdakı cədvəldə verilmişdir. Cədvəldə əsasən ölkəmizdə mövcud olan su tutucuların statistikası göstərilmişdir. Onların hər biri ayrı-ayrılıqda müxtəlif iqtisadi rayonlar ərazisinə mənsubdurlar. Bütün anbarlar haqqında digər fəsildə hər bir regiona uyğun olaraq məlumat veriləcəkdir. Onlar bir sıra məqsədər üçün istismar olunur. Əsasən suvarma, elektrik enerjisi istehsalı, ov və s. Hidroloji ehtiyatlar arasında böyük əhəmiyyətə malik bu obyektlər sayəsində elektrik enerjisi əldə edildiyi kimi, həm də Azərbaycan Respublikasının yerləşdiyi coğraji mövqeyi onun quraq iqliminin olmasına gətirib

çıxarmışdır ki, bu da öz növbəsində susuz regionların su ilə təmin edilməsində böyük rol oynayırlar. Qeyd edilən daha bir imkan isə bu tutucularda müxtəlif növ balıqların saxlanılması üçün böyük imkanların olmasıdır.

**Cədvəl 2. Su anbarları**

| № | Su anbarı | Sahəsi, km2 | Həcmi, km3 |
|---|---|---|---|
| **1.** | Mingəçevir | 605 | 15.73 |
| **2.** | Şəmkir | 116 | 2.68 |
| **3.** | Yenikənd | 23.2 | 1.58 |
| **4.** | Varvara | 22.5 | 0.06 |
| **5.** | Araz | 145 | 1.254 |
| **6.** | Sərsəng | 14.2 | 0.565 |
| **7.** | Ceyranbatan | 13.9 | 0.186 |
| **8.** | Xanbulançay | 24.6 | 0.052 |
| **9.** | Sirab | 1.54 | 0.013 |
| **10.** | Ağstafaçay | 6.30 | 0.12 |
| **11.** | Xaçınçay | 1.76 | 0.023 |

**Mənbə:** http://eco.gov.az/az.

Xəzər dənizinin sahilində çoxlu çimərlik sahələri var. Bunlar əsasən Şıxov, Novxanı, Mərdəkan, Zaqulba, Nardaran, Şüvəlan, Pirşağı kənd və qəsəbələrində yerləşən plajlardır. Populyarlıq liderləri kimi isə Mərdəkan və Novxana ərazisindəki çimərliklərdir. Bakı ətrafındakı sahilyanı çimərlik ərazisində onlarla düzəldilmiş mehmanxanaları, qonaqlıqları və istirahət mərkəzləri turistlər,yerli əhalini daha cəlb edir. Bunlardan bir neçəsini nəzərdən keçirək:

Aqua Park Şıxov Müasir infrastrukturu olan yaxşı təchiz olunmuş çimərlik kompleksində su slaydları, su tırmanışı, trambolinler, şezlonglar və şezlonglar, duşlar və s.

Golden Beach (Mərdəkan). Burada Təmiz su və idman sahələri olan 10 qumlu çimərlik var. Suda təmizləyici filtrlər olduğu yeganə yerdir, belə ki sağlamlığınızdan narahat olmaya bilərsiniz. Qiymət uşaqlar üçün cakkuzi, üzgüçülük hovuzları və böyüklər və azyaşlılar üçün slaydlar, şezlonglar, duşlar və dəyişmə otaqları daxildir. Sahildə bir scooter icarəsi, bir neçə bar və Azərbaycan mətbəxinə xidmət edən böyük bir restoran var.

Bilgəh Beach Oteli.Elit siniflərin beşulduzlu mehmanxanası və müxtəlif qiymət kateqoriyalarının 14 kottecini əhatə edən unikal bir turizm kompleksi. Ərazidə yaxşı saxlanılan qumlu çimərlik, 300 m uzunluğunda su parkı, spa, boulinq var. Bundan əlavə sahildə diskotekalar, şoular, konsertlər təşkil edilir.

Sea Breeze (Nardaran) otelindəki çimərlik Heat festivalı vasitəsilə hər il burada məşhur rus pop sənətçilərinin gəldiyi yer ilə məşhurdur. Çimərlik özü çınqıl, qumludur. Bir hovuzu var, lakin sahəcə kiçikdir.

Sumqayıt çimərliyi eyniadlı şəhərin Xəzər dənizi boyunca uzanan sahil xəttində yerləşən kompleksdir. Plyajın ərazisi xüsusi ilə sahilləri balıqqulağı ilə örtülüdür. Çimərlik yay ayları şəhər sakinlərini özünə cəlb edir. Son illər sutəmizləyici qurğuların inşası və yenilənməsinə baxmayaraq, çimərlikdə ekoloji tarazlıq hələ də bərpa olunmamışdır. Bu isə yerli əhali və turist cəlb etmək baxımından qeyri-səmərəli sayılır.

Lənkəran çimərlikləri. Özünüzü gerçək subtropiklərdə hiss edirsiniz, burada qadın plyajına da rast gəlinir. Mineral suyun mənbələri yaxınlığında yerləşir və sahilin çoxsaylı sanatoriyalarını müalicəvi terapiya kimi təklif edilir. Lənkəranda 2-si qeyri-dövlət, 1-i ictimai, Astarada 1-i özəl, 1-i ümumi istifadəyə yararlı olan çimərliklərin yaradılmasını planlaşdırılıb.

### 1.1.5. Meşə ehtiyatları

Meşə Azərbaycanın bütün ərazisinin 11,8% -ni əhatə edir. Respublikanın ümumi yaşıllıq fondu 1213,7 min hektardır, o cümlədən də bu örtüyün ümumi sahəsində bu rəqəm 1021-dir. Ölkəmizin 261 min h.a meşə sahəsi isə tanınmayan Dağlıq Qarabağ Respublikasının nəzarətindədir. Azərbaycan Respublikası ərazisində meşələr qeyri-bərabər bölüşdürülür. Beləliklə meşə zolaqlarının demək olar ki, 85%-i dağlıq hissədədir (Böyük, Kiçik Qafqaz, Talışın dağlıq ərazisi) və düzənlikdə yalnız 15% təşkil edir. Dağlıq hissədə meşə örtüyü ərazinin 18%-dən 40%-ə qədər dəyişir və düzənlik ərazilərində 0,5%-dən 2%-ə qədər dəyişir. Daha da dəqiqləşdirsək, ümumi ehtiyatların 49%-i Böyük, 34%-ə qədəri Kiçik Qafqaz, 15%-ə yaxın olan hissəsi Talış dağları zonası, cəmi 2%-i isə Aran nahiyəsinin (buraya Naxçıvan MR-da daxildir) payına düşür. 2010-cu il Azərbaycanda Ekologiya ili elan edildi. Bu baxımdan ölkədə geniş miqyaslı tənzimləmə işləri aparılmışdır.

Statistikaya əsasən: 48 fəsiləyə, 135 cinsə mənsub olan Azərbaycanın meşəlik zonasında 450 növ ağac və kol bitir, onlardan 150-i isə yabanı meyvə ağaclarıdır. Bu ağacların 30%-i bir çox istehsalat sahələrində istifadəyə yararlıdır. Burada 125 fəsiləyə, 930-a yaxın cinsə mənsub olan ali bitkilərin 4500-dən də artıq növü geniş areal üzrə yayılmışdı, bundan əlavə 107 ağac növü, həmçinin 288 kol cinsləri çox böyük zonalar üzrə yayılmışdır. Adları qeyd olunanların da 70-ə qədəri endemik olmaqla ancaq təbii olaraq Azərbaycanda yetişir (https://www.stat.gov.az/).

Ümumiyyətlə formasiyasında ən geniş yayılan Şərq fısdığıdır. Bu göstəricidə ikinci yeri isə Palıd cinsi tutur.Göstərici üzrə bu rəqəm 31% təşkil edir. Eyni ardıcıllıqla davam edəndə növbəti pillədə Vələs ağacıdır 22% göstərici ilə. Tərkibinə görə qruplaşdırdıqda isə sərtyarpaqlı cinslər 88%, yumşaqyarpaqlı növü təxminən 8,9%, yerdə qalan iynəyarpaqlılar isə ümumi tərkibin yalnız 0,06% təşkil edir. Göstərilən cinslərdən əlavə yaşıllıq ərazimizdə müxtəlif növdən olan Ardıc, Dəmirağac, Ağcaqayın, Toz və Qızılağac, Göyrüş, Qovağ Azot, Cökə və bu

kimi əsas ağac cinslərinin adını yazmaq olar. Təbii ehtiyatlarımızın sıxlıq üzrə bölüşdürülməsi də rəngarəngdir. Belə ki, meşələrin 2,62% yüksək, 18,3% normal, 2,62% orta və 13,7%-i aşağı sıxlığa malikdir. Ortalama götürdükdə isə 0,56% müəyyən edilir. Bentonit üzrə Respublika ərazisində böyüyən ağaclarımızın statistik göstəricilərinə nəzər saldıqda isə: Yüksək sayılan (I-II) kateqoriyaya aid edilən bonitetli meşələr ümumi sahənin 14,9%-ni, III-42,3%-ini, IV-27,4%-ini, sonuncu V-sinfə mənsub olanlar 15,4%-ni özündə cəmləşdirir. Dağlıq hissədə böyüyən ağacların orta yaşı 80-86, dağlıq zonada isə 40-60 ildir.

## 1.2. Tarixi-mədəni rekreasiya ehtiyatları

Bu bölməyə aid ehtiyatlara isə qalalar, muzeylər, tarixi bina və dini obyektlər, milli irs daxildir. Fəsildə qeyd edilən hər bir amil barəsində daha ətraflı məlumat vermişəm.

### 1.2.1. Qalalar.

Əzəmət, Nüfuz, yenilməzlik rəmzi sayılan qalalar xalqımızın öz torpağını sevməsindən, ona möhkəm bağlılığından, düşmənlərinə qarşı amansız mübarizəsindən məlumat verir. Onlar həmçinin zaman keçdikcə turistləri cəlb etmək və turizm rekreasiya ehtiyatlarına daxil olaraq milli mədəniyyətimizi, irsimizi tərənnüm edir.

Arxeoloji tədqiqatların nəticələri göstərir ki, Azərbaycanda qalaların əsasən üç tipi olmuşdur:

I. Məbədləri və din xadimlərinin əmlakını qorumağa xidmət edən qalalar. Ləkit məbədi (Qax rayonu), Yovur qala (Ağdam rayonu), Xanəgah (Pirsaat çayı kənarında) və s. qalalar bu qəbildəndir.

II. II. Feodal şəhərlərinin yaranması ilə meydana gəlmiş şəhərtipli qalalar. Bu tipli qalalar bəzən iki və üç qat divarlarla və xəndəklə əhatə olunurdu. Bu qalalar üçün dördkünc, dairəvi və yarımdairəvi bürclər xarakterikdir. Qəbələ, Dərbənd, Beyləqan və Bakı qalaları şəhər tipli qalalara misaldır.

III. Sığınacaq rolu oynayan qalalar. Bunlar daha möhkəm və əlçatmaz yerlərdə tikilirdi. Məsələn, Çıraqqala, Cavanşirqala, Əlincə qala, Gülüstan qalası, Qız qalası, Buğurt qalası və s. (A.Abdullayeva, 2009: s.4.).

Qız qalası. Möhtəşəm tarixi obyektimiz İçərişəhərin qədim sahil hissəsi yaxınlığında yerləşən memarlıq nümunəsidir. Qız qalasının quruluş tarixi bilinmir. Abidənin mövcud olması Şumer dövründən başladığını iddia edən mütəxəssislər də var, XII yüzillikdə inşa olunduğunu sübut etməyə çalışanlar da. Lakin, Qüllənin yuxarı hissəsindəki girişin sağ tərəfində iki ədəd kufik yazı ilə bir daş plitəsi quraşdırılıb. Yazıda "Masud ibn Dəvudun qübbəsi yazılıb. Bu yazıya əsasən qalanın XII əsrə aid olmasını güman etmək olar.Hündürlüyünün 28 metr olduğu təsdiqlənmişdir. divarın qalınlığı 5 m-ə çatır. Qalanın daxili bölməsi 8 mərtəbədən ibarətdir. 1964 - cü ildə Qız Qalası muzey oldu və 2000 - ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edildi. 2012-2013-cü illərdə qüllə son dəfə bərpa edilmişdir.

Şirvanşahlar Sarayı Orta əsrlər kompleksi olaraq İçərişəhər təpələrindən birində yerləşir.Qəsr XII əsrdə yaradılıb və XV yüzillikdə tamamlanıb. 1918-ci il 31 mart tarixində soyqırım zamanı top mərmiləri Şah məscidinin minarəsinin xeyli hissəsinə ziyan vurdu. 1960-cı ildə isə möhtəşəm tikili memarlıq qoruğuna, ondan sonra 1964-cü il "Şirvanşahlar Sarayı Kompleksi" adı altında Dövlət tarixi-memarlıq, həm də qoruq-muzeyinə çevrildi. YUNESCO Dünya irsi komitəsinin 24-cü sessiyasında (2000-ci il) keçirilən İçərişəhər sarayla Azərbaycanda YUNESCO-nun Ümumdünya irsi obyekti elan edildi. Bu, Azərbaycandan YUNESCO-nun siyahısına daxil olan ilk belə obyekt idi. Nazirlər Abaratının 2 avqust 2001-ci il tarixinə olan qərarı əsasında kompleks dünya əhəmiyyətli sayılan memarlıq abidəsi kimi qeyd olundu. 2006-cı ildə sarayın növbəti təmir-bərpa işləri tamamlandı. 2015-ci il Azərbaycanda keçirilən Avropa oyunlarını zamanı Olimpiya məşəli möhtəşəm Şirvanşahlar Sarayına da gətirilmişdi. Burada 42556 sayda maddi-mədəniyyət irs nümunəsi var. Bunlardan 22690-ı əsas fondu təşkil edir.

Nardaran Abşeron yarımadasının şimalında memar Mahmud oğlu Səd tərəfindən 1301-ci ildə eyni adlı qəsəbədə ağ daşdan tikilmiş tarixi-mədəniyyət nümunəmiz olan qalanın hündürlüyü12.5 m-dir. Qəsr arakəsmələrlə 3 hissəyə bölünmüşdür. İlk hissədə quyu vardır, ikinci qat qalın daşlarla örtülmüşdür, üçüncüsü isə dağılmışdır. 24 oktyabr 2001-ci il tarixindəki qərarə əsasən “Xəzər sahili mühafizə konstruksiyaları” üzrə UNESCO-nun Təcili olaraq Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrs kimi ilkin siyahısına salınmışdır.

Dördkünc və Dairəvi Mərdəkan qalası Bakı şəhərinin eyniadlı qəsəbəsində qədim tarixə malik olan möhtəşəm tikili. Tarix olaraq XIV əsrin ortasında I Axsitan tərəfindən inşa olunmuşdur. Hündürlüyü 22 metr, qalınlığı aşağı nahiyyədə 2,10 ,yuxarıda 1,60 metr civarında yekunlaşır. Qala içəridən 5 yarusa bölünür. Dairə qalanın texniki göstəricilərinə gəldikdə isə hündürlük 16 metr təşkil edir. Hazırda qalanı hündürlüyü əsasən 7 m olan daş divarlarla örtürülüb. Qapısının üzərində ərəb dilində 3 kitabə yazılmışdır. Bu yazıya əsaslanaraq deyə bilərik ki, qala Şirvanşah Herşası bin Fərruxzad bin Məniçöhrün (1204-1225) dövründə inşa olunmuşdur. Tikintidə çiy, bişmiş kərpicdən də istifadə edilib. 2001-ci il 24 oktyabr tarixli qərara əsasən abidə “Xəzər sahili mühafizə konstruksiyaları” UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrs nümunəsinə daxil edilmişdir.

Ramana qalası Bakının eyniadlı qəsəbəsində yerləşir və XIV aid olduğu tarixi ədəbiyyatlarda yazılır. Ramana qalasını bir sıra Azərbaycan filmlərinin "Koroğlu", "Nəsimi" və "Babək" çəkilişi zamanı izləmək mümkündür. Sonuncu dəfə obyekt 1950-cı ildə bərpa olunub. O da digər tarixi irs kimi 2001-ci il 24 oktyabr tarixli qərarla “Xəzər sahili mühafizə konstruksiyaları” UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrs nümunəsinə daxil edilmişdir.

Bayıl qalası Bakının Bayıl qurtaracağında, Karvansaray adasında yerləşən,hal-hazırda isə dəniz sularına qərq olmuş tarixi memarlıq simvolu. Heyrətamiz qəsr XIII əsrdə tikilmişdir. Uzunluğu 180 m, eni xüsusən 35 m-dir. Qalanın divarları qərbdə 5, şərqdə isə 6yarımdairəvi bürclə möhkəmləndirilmişdir. Tarixi irsimizin inşası

hələ monqol yürüşləri vaxtında (1234-1235-ci illər arası) bitmişdir. 1939–cu ildə kompleksdə arxeoloji qazıntılar nəticəsində aşkar olunan mis pulların üstündə Şirvanşah Güştasp Fərruxzadə və Xəlif əl-Nəsirin (1180-1225) adları qeyd edilmişdir.

Gülüstan qalası Şamaxı rayonunun ərazisinə aid olması deyilən bu abidə IX–XII yüzilliyə aid olunur. Kompleks ərazisində arxeoloji tapıntıların nəticəsi onun IX əsrə aid olunsa da, qala tam olaraq XII-XIII yüzilin arası yenidən qurulmuş, unikallaşdırılmışdır. Obyektimiz Şirvanşahlar nəslinin uzun müddət yay fəsli iqamətgahı olmuşdur. Tarixi obyekt Səlcuqlar dövründə möhkəmləndirilməsinə xüsusi diqqət ayırmışdır. Qəsrin suya olan ehtiyacını ödəmək məqsədilə Meysəri dağından bura saxsı tünglərlə kəmər çəkilmişdir.

Cavanşir (Girdiman) qalası İsmayıllı şəhərində yerləşən qəsridir. Qala Qafqaz Albaniyasının şahzadəsi Mihranidov Cavanşirin sülaləsindən qalmışdır. Qala inzibati mərkəz kimi istifadə edildiyi ehtimal edilir. Kompleksin sahəsi təxminən 1,5-2 hektardır və iki hissədən ibarətdir: daxili və xarici hissələr. Bu əsrarəngiz məntəqədən İsmayıllıda yerləşən 7 km məsafədə olan Qız qalasına doğruqazılmış bir yeraltı yol var idi. Onun tam sxemi ilk dəfə 1963-cü ildə coğrafiya elmləri doktoru, Ramazan Tarverdiyev tərəfindən hazırlanmışdır.

Koroğlu qalası Azərbaycan Respublikasının Gədəbəy rayonunun Qalakənd və Miskinli kəndləri arasında yerləşən orta əsrlərə aid olunan tarixi mədəniyyət nümunəsidir. Qala dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, qayalı uçurumun üstündə yerləşir. Onun içərisində bir yel dəyirmanı, təndir və su anbarı qalıqları qorunur. Yeraltı tunellər yeraltı yolların olduğunu ehtimal edir. Adına gəldikdə isə Koroğlu qəhramanı ilə əlaqələndirilir.

Əlincə qalası da qədimi sayılır və Culfa şəhərinin yaxınlığında, Əlincə çayının sağ sahilində eyniadlı dağın üstündə möhtəşəm tikili. Arxeoloji adı Əlincə, Alıncaq, Azərbaycan adı isə "Alıncaqala" olmuşdur. Şübhəsiz ki, bu qala adına Orta əsr Oğuz qəhrəmanlığı sayılan " Kitabi Dədə Qorqud " əsərində rast gəlinib. Onun 11

fevral 2014-cü ildə verdiyi "Culfa ərazisində "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" sənəd nəticəsində mədəniyyətimizə yüksək qiymət verilmişdir. Eləcə də 2005-ci il 6 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" fərman əsasında pasportlaşdırılarkən Əlincə qalası 2007-ci ildə dünya əhəmiyyətli abidələr arasına daxil olunmuşdur. Hal-hazırda isə burada muzey də fəaliyyyət göstərir.

f) otel ilə bağlı (əyləncə, idman fəaliyyəti, istirahət axşamları, mini klubların işi, kafelər). Bu növ canlandırma qonaqları otelə cəlb etmək üçün effektiv vasitələrdən biridir. Bu, bütövlükdə məntəqənin müsbət qiymətləndirilməsinə, mənəvi və fiziki gücün bərpasına təsir edir. Eləcə də turist üçün bir sıra əlavə xidmətdir, onun məqsədi yaxşı emosiyalar yaratmaq, istirahətdən məmnun olmaq və yenidən buraya gəlməyi arzulamaqdır.

g) Turist və otel animasiyalarının əsas rolu mehmanxanalarda, komplekslərdə, sanatoriyalarda qalanı yaxşılaşdırmaq, gündəlik narahatlıqlardan yayındırmaq, əhval-ruhiyyəni yaxşılaşdırmaq, dirilik və enerji bərpasına kömək etməkdir.

Ekskursiya nəzəriyyəsinin bir sıra konsepsiyaları var: a) ekskursiya funksiyaları, əsas xüsusiyyətləri və aspektləri; b) şou və hekayə xüsusiyyətləri; c) metod və metodologiya; d) təsnifatı; e) pedaqoji və məntiqinin elementləri; f) bələdçinin peşəkar bacarıqlarının əsasları və s.

Turistik ekskursiyaların təşkilində 1971-ci ildən 1988-ci ilə qədər Turizm və Ekskursiyalar Mərkəzi Şurasının Baş Ekskursiya İdarəsi tərəfindən hazırlanmış və nəşr edilmiş metodoloji təlimatlardan istifadə olunur. Gəzinti turlarında keçiləcək yol, görüləcək tədbirlər əvvəlcədən müəyyən olunur.Bu baxımdan tematik turlar fərqləndirilir. Tematik ekskursiyalar tarixi, sənaye, təbii,sənət, ədəbi, memarlıq və şəhər planlaşdırmalarına bölünür. Təşkilat və iştirakçıların sayı baxımından ekskursiyalar fərdi olaraq, yerli əhali, turistlər, yetkinləri və məktəbliləri və s. əhatə edir. Yürüyüş turlarının üstünlüyü, hərəkətin lazımi sürətini yaradaraq şou və hekayə üçün əlverişli şərait yaratmaqdır. Nəqliyyat ekskursiyaları əsasən avtobus dayanacağında olan obyektlərin (tarixi və mədəni abidələrin) analizi və qrupun

keçmiş və xatirə sahələrinin xüsusiyyətlərinə aid olan obyektlər barəsində əldə edəcəkləri məlumatlardan ibarətdir.

Turistlərlə ekskursiya işi rasional və empirik biliklər əsasında formalaşır. Belə ki, ekskursiya marşrutu turistlərin marağına səbəb ola biləcək əraziləri əhatə etməlidir. Bu ərazilər, muzeylər, eksponatlar, memarlıq abidələri və s. özünün tarixiliyi, elmiliyi və estetikliyi ilə diqqəti cəlb etməlidir. Turistlər ekskursiya zamanı həm maariflənməli, həm də mənəvi rahatlıq tapmalıdır. Eyni zamanda ekskursiyada iştirak edən hər bir fərd tarix və mədəniyyət abidələrinin elmi və mənəvi əhəmiyyətini dərk edir. Bunun da nəticəsində tarixi abidələrin qorunmasına və mühafizə olunmasına ümumxalq marağı formalaşır (İ.Hüseynov və N. Əfəndiyeva, 2007:s.29).

## 2.2. Azərbaycanda İnkişaf Etmiş Başlıca Turizm Növləri

Ölkəmizdə müxtəlif iqlim tiplərinin olması Turizm sənayesi və onun qeyri-ənənəvi növlərinin inkişafına geniş imkanlar yaradır. Bu bölmədə əsasən Respublikamıza məhşur sayılan başlıca turizm növləri haqqında məlumat vermişəm. Bunlara: Sağlamlıq, Ekoturizm, Dağ, Qış, Çimərlik, Ov, Dini, Tarixi, İdman daxildir. Onlar haqqında geniş məlumat verək.

### 2.2.1. Ekoturizm

Ekoloji turizm-məqsədyönlü tərzdə təbii ərazilərə vəhşi və yerli təbiətin mövcud səviyyəsi ilə maraqlanmaq, eləcə də dərindən öyrənilməsi, dərk olunması məqsədilə edilən səyahətdir. Bu cür gəzintilər zamanı ekosistemin bütövlüyü mütləq qorunmalıdır. 1880-ci ildən etibarən "eko-turizm" konsepsiyası "yumşaq turizm" adlandırılmışdır. Onun əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- Təbiətdə səyahət-yabanı mühitlə tanışlıq, yerli mədəniyyətlə tanış olmaq.
- Ekoloji və sosial-mədəni xarakterin mənfi təsirlərini minimuma endirmək, ətraf mühitin davamlılığını təmin etmək.
- Təbiətin qorunması və yerli sosial-mədəni mühitin təbliği.

- Ekolloji maarifləndirmə, həmçinin və məlumatlandırma
- Yerli sakinlərin bu fəaliyyətdən gəlir əldə etməsi.
- İqtisadi səmərəlilik və bölgələrin davamlı inkişafına qatqını təmin etmək.

Ekoturizm aşağıdakıları özündə cəmləşdirir:

1. Turist,qonaqlar tərəfindən nisbətən daha az korlanmış təbii zonalara səyahət.
2. Bu turizm növü ətraf aləmin dağıdılmasına, eləcə də onun keyfiyyətinin azalmasına səbəb olmur.

Bu növ üzrə ildə təxminən 500 milyon insan ekskursiya edir. Turistlər az tədqiq edilmiş marşrutlara, məntəqənin insan ayağı dəyməyən yerlərinə, təbiət abidələrinə cəlb olunurlar. Ekoturizmin aşağıdakı funksiyaları vardır:

- Turistlərin vacib ekoloji biliklərlə zənginləşdirilməsi;
- "şəhər" stresindən xilas, emosional bərpa;
- ekoloji mədəniyyətin formalaşması səbəbindən turistlərin dünyagörüşünün artırılması;

Ekoturizmin üç əsas növə bölürlər:

1. klassik- təbii, onun əsas məqsədi antropogen təsirləri demək olar ki yox saymaq;
2. əsas-insan tərəfindən dəyişdirilmiş ərazilərdir, lakin istirahət və turizm məqsədləri üçün nisbətən ekoloji cəhətdən səmərəli olur;
3. mədəni- həyat tərzi, inanc, mədəniyyət və bu ərazidə yaşayan təbəqənin ətraf mühitlə qarşılıqlı xüsusiyyətlərindən asılı olmayaraq tanışlıq və tədqiqatdan ibarət tip.

Ekoturizminin aktiv və passiv şəkildə həayta keçirilə bilər. Aktiv formaları-tez-tez yürüyüş, at, xizək sürmə, alpinizm, kaving, dağ, su səyahətlərinin bir çox növlərini əhatə edir. Passiv tip çadır düşərgələrində, gəzintilərdə, yürüşlərdə, balıqçılıq, pikniklərdə istirahət. Bütün sadalanan formasiyaların inkişafı üçün ölkəmizdə şərait vardır. Sahibkarları bu sahəyə cəlb etməklə böyük müvəffəqiyyət əldə etmək olar.

### 2.2.2. Dini turizm

Normal şəraitdən kənarda müqəddəs yerlərə və dini mərkəzlərə səyahət edən turistlərin xidmətlərini və ehtiyaclarını təmin edən bir fəaliyyət növüdür. Məscid, dini muzeylər, kilsələr və s. müqəddəs yerlər bu növün əsas infrastrukturunu əhatə edir. Həcc toxunulmaz yerlərə ibadət etmək üçün insanların səyahətidir. Üç qitənin kəsişməsində yerləşir: Asiya, Afrika və Avropa. Yəhudilik, xristianlıq və islamın kəsişməsində yerləşən İsrail üç böyük din dünyanın ən müqəddəs müqəddəs yerlərini özündə saxlayır.

Dünyada inkişaf etmiş olan başlıca turizm növlərindən biri və geniş auditoriyası olan dini turizmdir. Ölkə daxilində çoxlu sayda dini obyektlər vardır ki, oraya bir çox insanlar ziyarət məqsədilə gedirlər. Məsələn, Naxçıvan ərazisindəki “Əshabi Kəhfi” nəinki ölkəmizin müxtəlif yerlərindən, qonşu İran, Türkiyə və digər dövlətlərdən gəlib ziyarət edənlər az deyil. Bibiheybət məscidi, Nardaran piri, Mirmöhsün ağa məqbərəsi, Suleyman, Nüsnüs, İmamzadə, Alməmməd piri, Nuh Peyğımbərin abidəsi və bu kimi 500 dini obyeklərimiz mövcuddur ki bunlardan da 50-sinə insan axınları daha çoxluq təşkil edir.

Azərbaycan da tarix boyu dinlərin (atəşpərəstlik, xristianlıq və İslam) yayılma mərkəzi olub. Ona görə də, ölkədə bu dinlərə mənsub tarixi abidələrə rast gəlmək olur. Bakı şəhəri öz tarixinə görə qədim şəhərlərdəndir. E.ə III-I minilliklərə mənsub arxeoloji materiallar tapılmışdır. Nümunələrə əsasən deyə bilərik ki, bura uzunmüddət atəşpərəstliyin mərkəzlərindən olmuş, çoxlu məbədlər, atəşgahlar inşa olunmuş və qədim zamanlardan bəri əhalinin çoxu Zərdüşt dininə qəbul etmişdir. Ayrı-ayrı zaman kəsiyində ölkəmiz müxtəlif dinlərə mənsub olan xalqların əsarəti altında olmuşlar. Ona görə də indiki dövrdə dini tolerantlığın hakim olduğu respublikamızda müsəlmanlar üçün Bibiheybət, Təzə Pir, Hacı Sultan Əli Əjdərbəy və s. məscidlər, xristianlar üçün Rus-Provaslav, İsanın Müqəddəs Miladı, Mixail Arxangel, Müqəddəslər kilsəsi, yəhudilər üçün Sefardi Yəhudi, Aşkenazi Yəhudi sinaqoqu və s. bu kimi müxtəlif ibadət ocaqları fəaliyyət göstərir.

### 2.2.3. Idman turizmi

İdman turizmi-təbii maneələrə sinə gəlmək üçün insanın idmanını inkişaf etdirməyi hədəfləyən bir tipdir. İdman turizmi avadanlıqları onun növündən asılıdır və buraya xüsusi paltar, ayaqqabılar daxildir: Termal paltar, əlcək, ski, dağ, trekking, velosiped ayaqqabıları və örtükləri, xizəklər, velosiped forması, yaş və quru çantalar, neopren çoraplar, müxtəlif gözlüklər, dəbilqə, kaskalar, iplər, batareyaları olan işıqlar, çadırlar, tentlər, dalğıclar üçün müxtəlif qurğular və s.

Alternativ növlərdən olan qış turizmi də öz inkişaf meyllərini göstərməyə çalışır. Ümumdünya Turizm Təşkilatının məlumatlarına əsasən, hər il qış mövsümündə turistlərin 30-35%-i bu cür istirahət mərkəzlərinə gedəcəklər. Bunun əsl səbəbi isə insanların hər mövsüm bir arayışta olmaları və qış aylarında edə biləcəkləri fəaliyyətlərin məhdud olmasına bağlıdır. Son illərdə Azərbaycanda yüksək səviyyəli turizm infrastrukturu yaradılmışdır. Bu, "Qış turizminə" maraqların kəskin artmasına gətirib çıxardı. “Şahdağ” Turizm Mərkəzi, “Tufandağ” Qış-Yay İstirahət Kompleksi bu növə nümunə ola bilər. Bu cür obyektlər bir tərəfdən də mehmanxanaları mövsümi fəaliyyətdən azad etmiş olur ki, bu da investorları maraqlandırır. Bu növ əsasən qar yağışının uzun olduğu sahələrdə inkişaf etmişdir. Mərkəzdə bir sıra idman növləri var. Xüsusən insanların xizək idmanı üçün gəldiyini görürük. Eləcə də dağ yamaclarına yürüş, alpinizm, məcara və bu kimi istiqamətlərdə əylənə bilərsiniz. Bu növ turizmin inkişafı üçün bəzi texniki avadanlıqlara,həmçinin də ilk yardım üçün xidmətlərə, bələdçilərə ehtiyac duyulur.

Ölkə iqtisadiyyatı üçün də qış turizminin bir sıra faydaları vardır:

- Bu qeyri-inkişaf regionlarının, bölgələrin inkişafına yardım edir.
- Xalqın rifahını artırır.
- Turizm sektoru mövsümlükdən xilas olur.
- Mövsümə bağlı fəaliyyət göstərən müəsisələrin fəsil anlayışından azad edilməsinə gətirib çıxarır.

- ❖ Həmçinin işçilərini mövsümlükdən azad edir və il boyu məşğulluq üçün yol açır.
- ❖ Yerli müəssisələrə maliyyə dəstəyi təmin edir.
- ❖ Miqrasiya bölgələri köçməyə səbəb olur.
- ❖ Bölgəyə iqtisadi inkişafın verilməsi təmin edilir.

Bu növ Azərbaycanda da inkişaf etmişdir. Belə ki, bir sıra rayonlarımızda- Bakı, Quba, Qusar, Sumqayıt, Masallı, Sabirabat, İmişli, Gəncə, Şəki, Naxçıvan və digərlərində idman kompleksləri istifadəyə verilmişdir. Ölkəmiz bir sıra önəmli oyunlara şahidlik etmişdir. 2015-ci il Avropa oyunları, 2016 yay olimpiya, formula 1 və s. dünya səviyyəli tədbirlər burada keçirilmişdir.

### 2.2.4. Balneoloji turizmi (Sağlamlıq Turizmi)

Balneoloji turizmi sakinlərin və qeyri-rezidentlərin dövlət sərhədləri içərisində və xaricində 20 saatdan 6 aydan çox olmayan sağlamlıq məqsədləri üçün, insan orqanının müxtəlif xəstəliklərinin qarşısının alınması üçün nəzərdə tutulmuş istirahət formasıdır. Mineral sularla müalicə insan bədəninə iki istiqamətdə təsir göstərir: qan və sinir sistemi. Əsasən daxili, yəni içməli və xarici formada - isti banyo, hamam, duş şəklində istifadə edilir. Eləcə də kompressorlar, inqalator və bağırsaqları yuymaq üçün istifadə edilə bilər. Ölkəmizdə də bu sektorun inkişafı üçün isti və mineral bulaqlar mövcuddur. Badamlı, Şıxburnu, İstisu, Turşsu, Sirab, Vayxır, Qalaaltı, Suraxanı, Mor-Mor suları müalicəvi xüsusiyyətlidir. Bundan əlavə Azərbaycanın kurort resurslarının ən vacibi Naftalan nefti və Naxçıvanın Duzdağ kompleksidir.

Kurortlara aşağıdakı tələblər qoyulur:

1. Resortun normal fəaliyyətini təmin etmək üçün təbii terapevtik amillərin olması.

2. Orada mövcud olan amillərindən (üzgüçülük hovuzlarından, neft vannalarından, çimərliklərdən və s.) səmərəli istifadəsi üçün lazımlı texniki qurğu və binalar.

3. Müalicə və mənzil üçün hazırlanmış binalar (sanatoriyalar, istirahət evləri).

4. Xəstələrə və qonaqlara tibbi yardım göstərən müəssisələrinin olması.

5. İstirahət, idman obyektlərinin və oyun meydançalarının mövcudluğu.

6. Dövlət, ictimai iaşə müəssisələrinin, ticarət, istehlakçı xidmətlərinin, mədəni və təhsil ocaqlarının olması.

7. Rahat çıxış və ünsiyyət vasitəsi.

8. Ətraf mühitin ərazisində elektrik, su təchizatı, kanalizasiya təmin edən mühəndislik qurğularının mövcudluğu.

Spa kurortuna sağlamlıq mərkəzlərinə gələn xəstələr arasında, əsasən, mədə-bağırsaq traktının, ürək-damar və sinir sisteminin, tənəffüs yollarının və kas-iskelet sisteminin xəstəlikləri olan insanlar daha çox olur. Çamur terapiyası də çox təsirli prosedurlardan biridir. Palçıq vasitəsilə müalicənin təsiri kir tətbiq olan sahənin ölçüsü, temperatur və adıçəkilən elementin fiziki xassələrinə və prosedur müddətindən asılıdır. Terapektiv palçıq-təbii su, minerallar və üzvi maddələrin ibarətdir.

### 2.2.5. Aqro-kənd turizmi

Kənd turizmi 1970-ci ildən bəri ən azı Avropada yeni bir növ mərhələsinin başlanğıcını qoydu. Hal-hazırda Avropada bu forma müxtəlif mənbələrə görə, turizm sənayesinin ümumi gəlirin 10%-dən 20%-ə qədərini formalaşdırır. Kənd turizmi təbii komplekslərə zərər verməyən, təbiətin qorunmasına kömək edən və yerli əhalinin rifahını yaxşılaşdıran, gəlirlərini artırmağa imkan yaradan şəhər şəraitindən kənarda olan bütün bölümü əhatə edir və o yalnız bir kənd evindəki bir turistin yerləşdirilməsi deyil, həm də bütün infrastrukturun işləməsi, məsələn, yaşayış, istirahət yerləri, müxtəlif informasiya və texniki xidmət göstərən sahələri mövcudluğu, kiçik restoranlar, kafelər və tavernalar daxildir, eləcə də istirahətin passiv formasını nəzərdə tutur. Azərbaycanda da strateji yol xəritəsinə əsasən Şamaxıda Safari parkının

yaradılması nəzərdə tutulur. Kənd turizminin özünəməxsus bir sıra xüsusiyyətləri vardır.

- ✓ Kənd həyatının sülh, əmin-amanlığı
- ✓ Canlı yay suyu.
- ✓ Rütubətli ağacları ilə dolu hava.
- ✓ Baxçaları, tərəvəz, təzə süd, evdə çörək.
- ✓ Fərdi istirahət və xidmət rejimi.
- ✓ Ev zövqü üçün yemək.
- ✓ Dörd ayaqlı bir neçə dostlar ilə birlikdə olma imkanı.
- ✓ Meyvələr, otlar, göbələklər, qoz-fındıqların yığılması.
- ✓ Balıqçılıq, at sürmə, samanlıqda iştirak, sənətkarlıq nümunələri.
- ✓ Milli bayramlarda iştirak.

Ana təbiətdən yüksək keyfiyyətli, qeyri-adi qidaları- bal, süd, xama, ət və s. dadmaq imkanı, şəxsi bələdçi, fərdi gəzinti və başqa formasiyalar bu növə mənsubdur. Dövlət orqanları üçün üstünlüklər:

1. Məşğulluğun artması.
2. Sosial təzyiqlərin azaldılması.
3. Daxili gəlirlərin artımı.
4. Ailələrin qazandığı bütün vəsaitlərin regiona aidliyi.
5. Dövlət hakimiyyətinin turizm məsələlərinin təşkilatçılarının (müvəqqəti və daimi iş yerlərinin yaradılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması) qərarı.
6. Mədəniyyət təşkilatlarının turistlərə xidmət göstərməsindən əlavə qazanc imkanı.
7. Kənd turizminin iştirakçılarının sosial fəaliyyətinin artması.
8. Kəndlilərə turistlərin cəlb edilməsi və gəlirlərinin artması ilə əlaqədar xidmət sektorundan büdcədə əlavə vergilər.

Biznes üçün üstünlüklər:

1. Qısamüddətli, lakin fəsli müştərilərin artması səbəbindən bütün xidmət sektorunun (dükanlar, qaz stansiyaları, telekommunikasiya mərkəzləri, poçt və s.) gəlirlərinin artması,
2. Artırılmış tələbat məqsədi ilə malların və göstərilən xidmətlərin zəmanətli satışı ilə əlaqədar müxtəlif sənaye sahələrinin yaradılması imkanı.
3. Biznes əlaqələri qurmaq və investisiyaları cəlb etmək bacarığı.

### 2.2.6. Çimərlik turizmi

Turizmin xüsusilə yaxşı inkişaf etdiyi ölkələrdə təbii və istirahət resursları mədəni və tarixi məkanlarla birləşir və onlar arasında plyaj amili xüsusi yerə malikdir. Abşeron yarımadası bu sahədə ilk olmaqla şimalda (Xızı, Şabran, Xaçmaz Siyəzən), cənubdan isə (Lənkəran, Astara sahil əraziləri) çimərlik turizmi üçün əlverişlidir. Çimərlik suyun və küləyin təsiriylə eroziya nəticəsində meydana gələn bir rezervuar sahilinin nisbətən çökmüş bir sahəsidir. Sahil zonalarında üzgüçülüyə əsaslanan istirahət əsasən dəniz, göl, çay və süni su anbarlarında (gölməçələr, su dolu daşları, su anbarları) təşkil olunur. Onun qiymətləndirilməsində bir sıra amillər nəzərə alınır:

- çimərliklərin litoloji-mexaniki tərkibi (karbonat-kvars, qövs-kireçtaşı, qara-qabıq, daş, çınqıl-qum, balıq qulağı, boulder və s.);
- plyajın genişliyi
- su ərazisinin orta eni
- axın dərəcəsi (çay üçün);
- fırtına, qasırğa fəaliyyəti;
- çimərliklərinin avadanlıq və təhlukəsizlik dərəcəsi ilə təminatı.

**Plajların bir sıra növləri vardır:**

1. Qum və çınqıl çimərliyi.

2. Şell çimərliyi. Bu tip çimərlik nadirdir. Onun səthi çöküntü qabıqları ilə örtülmüşdür.

3. Qayalı, daşlı. Suyun təmizliyi və aydınlığı - cazibədar qayalı çimərliklərdir.

4. Beton çimərlik. Dənizdə, bəzən isə suyun dayandıqları beton sahələrdən ibarətdir.

### 2.2.7. Ov turizmi

Ovçuluq xüsusi bir turizm növüdür. Bu, vəhşi heyvanların və quşların ovlanmasına yönəlmiş səyahətdir. Bununla yanaşı balıqçılıq kimi "fəal turizm", "safari" turları bütün dünyada son dərəcə məşhurdur. Respublikanın ovçuluq təsərrüfatlarında xarici turistlər üçün idman, həvəskar və sualtı ov işlərini təşkil etmək mümkündür.

Ölkəmizdə 176,8 min hektar sahəsi olan ərazidə 15.510 baş dırnaqlı, 68.720 baş xəzli heyvan, 4,380 milyon qədər quş vardır. Bu növ istirahətlə məşğul olmaq üçün bir sıra infrastrukturların olması vacibdir.Bunlara aiddir: Açıq hava qəfəsləri, ovçuluq, elmi, heyvandarlıq, turistik və digər məqsədlər üçün, o cümlədən açıq hava ovu vasitəsi ilə çöl heyvanlarının saxlanması, yetişdirilməsi və kompleks istifadəsi; ovçuluq üçün istifadə olunan ovçuluq itləri, digər heyvanların sınaqdan keçirilməsi məqsədilə yabanı heyvanların saxlanılması. Bu səbəblə yaradılan zonanın sahəsi ən azı 100 hektar olmalıdır, itlərin təlim keçməsi üçün isə ən azı 4 hektar olmalıdır.

Ölkədə su-bataqlıq quşlarının daimi qışladığı yerlərə Ağcabədi, Astara, Cəlilabad (Qırmızı kənd ovçuluq təsərrüfatı istisna olmaqla), Beyləqan, İmişli (Sarısu və Bozqobu ovçuluq təsərrüfatları istisna olmaqla), Lənkəran (Havzava ovçuluq təsərrüfatı istisna olmaqla), Masallı, Biləsuvar (Mahmudçala və Zavvar ovçuluq təsərrüfatları istisna olmaqla), Ceyranbatan gölü və Abşeron yarımadasının başqa su anbarları, həmçinin Mingəçevir su anbarını aid etmək olar. Dağkeçisi və digər meşə heyvanları isə xüsusi icazə əsasında Quba, İsmayıllı və Şəki rayonu ərazilərindəki ovçuluq təsərrüfatlarında ovlana bilər (https://static.president.az/pdf/38542.pdf: s.451).

# III Fəsil AZƏRBAYCANDA REKREASİYA EHTİYATLARINDAN İSTİFADƏ PROBLEMLƏRİ

## 3.1. Azərbaycanın iqtisadi rayonlarının turizm-rekreasiya ehtiyatları

Abşeron iqtisadi rayon kimi Azərbaycan Respublikasının şərqində, Xəzərin sahilində yerləşir. Daxilində 5 inzibati ərazisi var. Onun cəm sahəsi 5,87 min km$^2$-dir (ümumi ölkə ərazisinin 6,7%-i) tutur. Bunun 34%-i Abşeron yarımadasının payındadır, urbanizasiya 80%-ə yaxındır. İstilik miqdarının artıqlığı, günəşli saatların uzunluğu (ildə 2244 saat) və müsbət radiasiya mənbəsi ilboyu şaxtasız havaların daha çoxluq təşkil etməsinə şərait verir. Havanın orta illik temperaturu (+13,5°C-14,4°C) hesablanır. Abşeronda il üzrə yağıntıların miqdarı 160-250 mm-dir. Yay fəslində sredni aylıq temperatur 20°C-dən yüksək olur. Buranın təbii bitki örtüyü o qədər də zəngin deyil. Xızı, Altıağac rayonlarında bir qədər dağ-meşə və dağ-çöl landşaftına rastlamaq olur. Ümumi radiasiya il üzrə 130-135 kkal təşkil edir. Çaylarına gəldikdə isə Tuqçay, Ataçay, Sumqayıt, Ceyrankeçməz və başqa. İqtisadi rayonunda yaşayan xalqın mədəni, həyat, təhsil səviyyəsi başqa bölgələrə nisbətən yüksəkdir.

Təbii rekreasiya ehtiyatlarına baxdıqda isə balneoloji iqlim, Masazır və onun kimi göllərin müalicəvi palçığı, Suraxanıda, Şıxda Buzovnada isti mineral bulaqlar, Xəzərin qumsal çimərlikləri, bol günəşli mühiti sağlamlıq turizm üçün əlverişlidir. Bu nahiyədə Cənnət Bağı istirahət mərkəzi (Xızı), kurort-sanatoriya kompleksləri (Bilgəh, Buzovna Mərdəkan) qonaqların istifadəsinə verilib. Bundan əlavə Bibiheybət məscidi, İçərişəhər kompleksi, Ramana, Mərdəkan qüllələri, qalaları, Atəşgah məbədi, Nardaranda dairəvi, dördkünc qüllə, Qala Dövlət Tarix-etnoqrafik qoruğu, Dövlət Tarix-memarlıq qoruğu misal şəkilə bilər. Onu da qeyd edək ki, Azərbaycan turizm üzrə yerləşmə vasitələrinə verilən nömrələrin 41,2%-i, birdəfəlik tutumun isə 30.9%-i təkcə Bakının payına düşür. İqdisadi rayonun payına düşən türk və hind kulnariyası, milli, avropa, tipli ictimai yeməkxanaların çoxu yenə Bakıda yerləşir. 2014-cü il üzrə turizm təşkilatlarının təşəbbüsü vasitəsilə Azərbaycana səfər edənlərin (10657 nəfər)

98,5%-i Bakıda yerləşmişdilər. Abşeron royunu üzrə göllərinin təsərrüfat əhəmiyyəti olduğu hamımıza məlumdur. Burada lap keçmişdən yod-brom, duz istehsal edilmiş, eləcə də balneoloji rekreasiya kimi də istifadə, palçığı isə fərqli xəstəliklərin (məs, revmatizm, dəri, yel) müalicəsində işlədilmişdir.

Təbiətin gözəl müəmması sayılan Palçıq Vulkanlarının sayına və müxtəlifliyinə görə Azərbaycan dünyada birinci yeri tutur. Yer kürəsinin müxtəlif ölkələrində mövcud olan 800 məlum palçıq vulkanından 400-ü cənubi Xəzər neftqaz hövzəsi hüdurlarında, o cümlədən 300-dən çoxu Azərbaycanın quru ərazisində və Xəzər akvatoriyasında- dənizdə və çoxsaylı adalarda yerləşir (Abadov M.K, 2014; səh 46).

Qaldı ki, "İçəri Şəhər" abidələr kompleksinə orada 44 abidə var. 350-dən çox abidə Nazirlər Komitəsi 27 aprel 1988-ci il qərarı ilə dövlət tərəfindən qorunmaqdadır. Ağa Mikayıl hamamı (XVIII əsr), Məscid-Mədrəsə (XIV əsr), "Multani" (XII-XIV əsrlər), Hacı Bani məscidi (XVI əsr), "Buxara" adlı karvansaralar (XV əsr) bizə çatan qiymətli memarlıq nümunələridir. Ən vacibi isə "İçəri şəhər" mərkəzinin adı UNESCO-nun xüsusi bülleteninə salınmışdır. İqtisadi rayonda dini ziyarətgahların bir qismi turizm üçün əhəmiyyətlidir. Onlardan Bibiheybət məscidini, Mir Mövsüm Ağanın və Rəhimə Xanımın ziyarətgahlarını qeyd etmək olar. Qobustan qoruğu SSRİ Nazirlər Sovetinin 1966-cı il qəbul olunmuş qərara görə eyniadlı ərazidə yaradılmışdır. Qeyd edilən yerdə 4 mindən çox qaya üstü rəsmlərdə 169 vəhşi, ev heyvanları, ov səhnələri, quşlar, ümumi əmək, təsvir edilmişdir. Tarix-Bədii qoruğu 2007-ci ildə UNESCO-nun maddi-mədəni irs nümunələrinə daxil olunmuşdur. "Qala" adlı Dövlət Tarix-Etnoqrafiya Qoruğu və Arxeoloji Etnoqrafik Muzey Kompleksi. Xəzər rayonunun eyniadlı qəsəbəsində 156 ha sahədə 1988-ci ildə salınan eyniadlı qoruğun adını çəkmək olar. Onun tərkibində 300-ə qədər tarixi, arxeoloji, memarlıq, abidələr daxildir. 2008-ci ildən etibarən bura gələn turistlərin miqdarı hər il üzrə 25-30% artır. Daha bir tarixi nümunə "Atəşgah məbədi" adlı Dövlət Tarix-Memarlıq Qoruğunun adını çəkmək olar. Zərdüştlük dünya üzrə çox qədim dindir. O, Azərbaycan ərazisində təxminən b.e. II-III yüzilliklərində

yaranmışdır və özləri üçün “Atəşgah” (“od yeri”, “od səcdəgahı”) məbəd salmışdılar. 2007-ci ildən etibarən Azərbaycan Prezidentinin əmri sayəsində Dövlət Tarix-Memarlıq adlı qoruq olmuşdur. Siyahıya Məhəmmədi kəndində yerləşən “Yanardağ" adlı Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunu da daxil edək. Burada baş verən yanmalar əsaən vulkanik-tektonik proseslərə görə yaranan çatlar ilə səthə qalxan təbii qazın alışması nəticəsində yaranır. Əraziyə gələn qonaqların sayı da ildən ilə artır. Lakin lazımı səviyyədə infrastruktrun olmaması və buraya investorların cəlb edilməməsi oranın rekreasiya səviyyəsini aşağı salır.

Quba-Xaçmaz iqtisadi rayon Respublikanın şimal-şərq hissəsində yerləşir. Daxilində Quba, Şabran və Siyəzən, Xaçmaz, Qusar inzibati rayonları özündə birləşdirir. Onun sahəsi 6.96 min km2 (ölkə ərazisinin 8,3%-i) tutur. Bundan əlavə Afurça şəlaləsi, Təngəaltı dərəsi, Qəçrəş, qumlu çimərliklər Yalama-Nabran tərəflərdə burada istirahət edənləri cəlb edir. Həmçinin maraqlı tarixi-memarlıq abidələrindən sayılan Beşbarmaq dağı, Çiraqqalanın qalıqları, Siyəzəndə türbələr, orta əsrə aid şəhər abidələri, Gülüstani İrəm Şabran daxilində, Atəşpərəstlər məbədi, Qubada Cümə məscidi və s. aiddir. 10-11%-ə qədəri meşələrlə əhatə edilmişdir. Şahdağ, Altıağac Milli parklarının müəyyən qismi Quba-Xaçmaz rayonuna daxildir.

Günəşli günlərin illik miqdarı həcminə 190-220-dir. Bunun da 75%-i aprel-sentyabr aylarına təsadüf edilir. Ümumi radiasiyanın il ərzində 120-148 kkal/sm2 olur. Yayda suyun orta temperaturu 22-23°C-dən çox olmur. Qışda isə 5,5-6,3°C tərəddüd edir. Ən mühüm çayları isə Qudyalçay, Samur, Qusarçay, Qaıaçay, Quruçay, Ağçay, Vəlvələçay, Gilgilçay, Şabrançay, Dəvəçiçay və digərləridir. Bəzilərinin üzərindəki olan ümümi sayı 182 şəlalələr təbii turizm bölmələridir (Abadov M.K, 2014; səh 59).

İqtisadi rayonunda rekreasiya əhəmiyyətli göllərə rast gəlinir. Bunlardan ən yekəsi Ağzıbirçala gölüdür. O, Şabran rayonunda, Xəzərin sahilində yerləşir, laqun yəni qalıq mənşəlidir və maksimal dərinliyi 26,4 m-dir. Xüsusilə su quşlarının ovu məqsədilə yararlıdır. Qoşanohur gölü Qubada yerləşir. Həmçinin rayonda buzlaq

mənşəlli Tufangöl, sürüşmə tipli (Vəlvələçay, Girdmançay, Gilgilçay) göllərə də rastlanılır. Şabran rayonunda çıxan Qalaaltı mineral suyunu alimlər Karpat dağlarından çıxan Turuskavets suları ilə müqayisə edir. Quba rayonunda isə möhtəşəm Xaşı, Cimi, Xaltan, Düz Bilici, Balbulaq  mineral sularının adlarını çəkə bilərik. Onu da deyək ki, Quba-Xaçmaz rayonunda var olan mineral mənşəlli su ehtiyatının potensial imkanlarından tam olaraq istifadə edilmir.

Qaldı ki tarixi-mədəni abidələrə Zarat kəndinin ərazisində Xızırzində Baba adlanan Beşbarmaq istehkamının xarabaları, Sedan kəndi ətrafında Dindar qalasının Qara Dundur adlanan istehkamının xarabaları, Şıxlar kəndində XV əsrdə aid Şeyx Heydər məqbərəsi, Gil-Gilçay məntəqəsində XVIII əsrəyə gəlmiş Pir Xəlil türbəsi və s. Bundan savayı Siyəzən rayonunda dünya əhəmiyyətli sayılan tarixi mədəni abidələrə vardır:  Beşbarmaq qala səddi (IV-VII əsrlər). O, eyniadlı dağın ətəklərindən Xəzərə qədər uzayırdı. Səddin bir hissəsi bizim dövrümüzə gəlib çıxmışdır. Gilgilçay adlı müdafiə tipli istehkamlar kompleksi (V  əsr). Bu tarixi nümunə bu rayonun Eynibulaq, Qalaaltı, Yenikənd, Daşlı Çalğan kəndləri ərazisindən keçərək Çıraqqala ilə qovuşur. Qubada olan əsl namesi Qüdsi olan Səkinə xanım məscidi də yaxşı tarixə malikdir. Çünki bu tikilini Səkinə A.A.Bakıxanovun şərəfinə ucaltdırmışdır. Bundan əlavə Ərdəbil məscidi (XIX əsr), Hacı Cəfər məscidi (XX əsr), Ağ məscid (XIX əsr) burada vardır. Ağbildə adlı səkkizguşəli məscid və eləcə də düzbucaqlı türbə (XVI əsr) tarixi izini saxlamışdır. Adları çəkilən bütün obyektlərə turistlər, ekskursiyaçılar daha çox ziyarət edirlər. Bu zonada mehmanxana stilli yerləşmə müəssisələrinin miqdarı 55-dir. Bu rəqəm ölkədə olan yerləşmə müəssisələrinin 19%-ni özündə əks etdirir. Bu göstəriciyə görə Quba-Xaçmaz bölgəsi respublikada 2-ci yeri tutur. Burada çox məhşur olan Şahdağ Qış-Yay Turizm Mərkəzinin tikintisinə 2009-cu ilin  başlanılmışdır.

"Azərbaycan kurortları” adlı Dövlət Proqramı üzrə «Azərbaycan Respublikasında 2009-2018-ci illərə görə kurortların inkişafı çərçivəsində Dövlət Proqramı»nın təsdiq olunması barədə Ölkə başçısının sərəncamları vardır. “Qalaaltı”

müalicə-istirahət mərkəzinə müalicə, istirahət məqsədilə gələnlər üçün gözəl və səfalı "Çıraqqala" abidəsinə turlar təşkil etmək şansı verilir. Qusarın istirahət zonası sayılan "Suvar" dağ-turizm yerində turistlərə tur təklif olunur.

Şəki-Zaqatala iqtisadi rayonu Azərbaycanın şimal-qərbində, Baş Qafqazın isə cənub yamacında yerləşir. Bu bölgənin çox qədim tarixi və turizm potensialı yüksək olan Qax, Şəki, Oğuz, Zaqatala, Qəbələ, Balakən rayonlarını vardır. Onun sahəsi 8,84 min $km^2$ (ölkəmiz üzrə ərazinin 10,2%-i) tutur. Bölgənin landşaftına baxdıqda ümumilikdə dəniz səviyyəsindən 100-4466 m-ə qədər yüksəkliydə yerləşir. Xüsusən dağ-meşə, dağ-çöl, alp, subalp çəmənlikləri, həmçinin nival kimi yüksəklik qurşaqlarını əhatə edir. Ərazi üzrə il ərzində günəşli günlərin miqdarı 2200-2300 saata qədər, ümumi günəş radiasiyası isə 120-148 kkal/kv arasında dəyişir. Qaldı ki havanın orta illik temperaturuna əsasən 0-14°C arasında fərqlənir. Yağıntıların miqdarında iqtisadi ərazi Lənkərandan sonra ölkəmizdə ikinci yerdə qərarlaşıb. Dağlıq ərazilərdə xüsusən 900-1300 mm-dir.

Bundan əlavə Bakı-Balakən turizm xətti də buradan keçir. Möhtəşəm Balakən-Loqodexi,Yevlax-Balakən Beynəlxalq maşın yolunun TRASEKA nəqliyyat mərkəzinə daxil olması, həmçinin Balakən gömrük obyektinin burada fəaliyyət göstərməsi ərazinin prespektiv inkişafına yaxşı fürsətər verir. (H.B. Soltanova,2007:s.209)

Tarixi-memarlıq nümunələri sayılan İsfahan, Təbriz, ləzgi olan karvansaralar, "Gələrsən-Görərsən" abidəsi, Qafqaz Albaniyasının keçmiş qəbilələrinə aid Yalovlu təpə mədəniyyətinin izləri vardır. Bundan əlavə Şəki-karvansara tipli otelləri, Marxal, "Gələrsən Görərsən", Səadət, Qəbələ, Sahil istirahət zonaları Qafqaz və Dağ turist bazaları, Şəfa, İlisu pansionatlan, Gülüstan turizm bazarı, Tala və başqa obyektlər turistlərin ixtiyarındadır. Qaldı ki hidreloji ehtiyatlara Oğlanbulaq, Hamambulaq, Qızılbulaq, Xalxal, Mosku, Bum, Ağbulaq, Buqusşor və s. bulaqların suyu əsasən əsəb, əzələ, dəri, ürək-damar kimi xəstəliklərinin müalicəsində çox əhəmiyyətlidir. Qax ərazisində Suskən kəndi ətrafında bulaqdan "Qax" suyu istehsal olunur. Təbiət mənzərəli "Zaqatala" Dövlət qoruğu 1929-cu ildə əsası qoyulub və Zaqatala, Balakən

rayonlarının ərazisinə daxildir. Qoruğun daxilində turistlərin istirahəti üçün çoxlu yerlər qurulmuşdur. Zaqatala sakinlərinin sevimli istirahət zonalarından biri də Dədə Qorqud meydanıdır. 800 yaşlı və gövdəsinin qalınlığı 6-7 metrə çatan Çinar ağacı çox məhşurdur. Zaqatala bölgəsində turistləri özünə daha çox cəlb edən Katex şəlaləsidir. Balakəndə həmin ilə aid olunan Heydər Əliyev adını daşıyan mədəniyyət, istirahət parkında kanat yolu quraşdırılmışdır 1 saat ərzində 216 qonağa xidmət edə bilir və 6 kabinəsi var. Oğuz rayonunu öz füsnükar təbiəti Azərbaycanın "İsveçrəsi" deyilir və ərazisinin demək olar ki yarısını meşədən ibarətdir. Şəlaləsi, kükürdlü və termal bulaqları boldur. Bu kimi istirahət, rekreasiya zonası Şəki rayonunda Marxal adlı guşədir və orada 2015-ci ildə yenidənqurma işləri baş vermişdir. Təbii sayılan rekreasiya nümunələrinə Qaxın İlisu kəndini də daxil etmək olar. Burada eyniadlı şəlalə də turist cəlb etmək baxımından çox rentabellidir və İlisu Dövlət Qoruğunun ərazisindədir. Bundan əlavə 300 növ bitki, 90 növ kol və endemik sayılan bitki növlərinə rastlamaq olur. Qəbələ rayonunu turizm-rekreasiya ehtiyatları olan sahə kimi qeyd etməliyik. Belə ki, "Yeddi gözəl " şəlaləni, həmçinin ordakı mineral bulaqları xüsusilə qeyd etmək lazımdır.

Burada Dövlət tərəfindən mühafizə edilən 100-ə yaxın abidələr var: "Şeytan", "Armatay","Zaqatala", "Cingöz" (XIV əsr), "Pəri" (V əsr) qalaları, Vl-Vlll əsrlərə aid çoxlu Alban abidələri, eləcə də Kebeloba kəndində (XIV əsr), Mazıx, Axaxdərə qəsəbələrində (XII əsr), Paşan rayonunda (XIII əsr) Alban qüllələri vardır. Turistlər, qonaqlar Zaqataladən 6 km şimal-qərbdə olan Car kəndinə gəlməyi daha çox istəyirlər. Buna səsəb orada bir sıra tarixi, mədəni, istirahət zonalarının olmasıdır. Sasani dövründə tikilmiş Böyük Sədd heyrətamiz abidənin qalıqları Balakənin Katex kəndində yerləşir. O, V-VII əsrlərdə Sasani hökmdarı olan I Qubad və Xosrovun əmri əsaında tikilib və əsasən hunlardan müdadiə kompleksi olmuşdur (H.B. Soltanova,2007:s.211).

Hələ orta əsrlərdə ipəkçiliklə, kələğayı istehsalı ilə məşğul olan və bununla bütün dünyada öz izini salmış qədim Şəkidə tacirlərin yerləşmələri, ticarət etmələri

üçün çoxlu sayda karvansaralar olmuşdur. Qəbələdə isə 12 turizm məntəqəsi fəaliyyətdədir. Onlardan ikisi 5 ulduzludur. Qəbələ zonasında Qəmərvan İstisu müalicə, balneoroji sanatoriyası 260 nəfər tutuma malikdir. Burada Avropa standartlarına uyğunlaşdırılmış 2 ədəd müalicəvi su hovuzu qurulmuşdur. "Qəbələ Hotel" - Eyniadlı şəhərdə Heydər Əliyev Parkına yaxın yerləşir. "Gilan Hotel" - Zarağan kəndinin ərazisində daxildir. Ərazidə dəmir, avtomobil yolu hava nəqliyyatı xətti fəaliyyət göstərir. Bakı-Balakən turizm xətti də bu bölgədən keçir və adıçəkilən avtomobil şosesi sistemi ilə TRASEKA və Cənubi Qafqaz şəbəkəsinə birləşir. Turizm rekreasiya ehtiyatlarından istifadəyə görə Oğuz geri qalır. Ancaq ki, "Ölkəmiz üzrə 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda adları çəkilən bir sıra mühüm tədbirlərin həyata keçirilməsi öz növbəsində bu rayonda turizmin inkişaf sürrətini artıracaqdır.

Gəncə-Qazax iqtisadi ərazi Azərbaycanın qərbində hissəsində yerləşir. Qədim tarixi, eləcə də böyük turizm imkanları olan Göyğöl, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Daşkəsən, Samux, Goranboy, Gədəbəy rayonlarını, həmçinin Naftalan, Gəncə şəhərləri bura daxildir. Ərazinin ümumi sahəsi 12,3 min km2 (ölkənin 14,2%-i) tutur. Landşaft xüsusiyyətlərinə baxdıqda 4 zonaya: yüksək dağlıq, maili düzənliklər, dağətəyi, orta dağlıq ayrılır. Yanvar ayı üzrə orta temperaturu -3°C +3°C arası dəyişir, iyulundə isə bu göstərici 20-27°C arası dəyişir. İqtisadi rayonda illik yağıntı miqdarı 400-600 mm, lakin Göygöldə 700 mm-ə qədər arta bilir. Ən vacib çayları Şəmkir, Kür, Ağstafa, Tovuz, Zəyəm, Qoşqar, Gəncəçay və digərləri. Adları qeyd olunanların su anbarları qurulmuşdur. Bunlara Şəmkir 1982-ci il, Ağstafaçay 1969-cu il, Yenikənd 2000-ci il daxildir. Bunlardan həm müalicəvi, eləcə də süfrə suları kimi istifadəyə yararlıdır. Onu da deyək ki, ərazinin Yuxarı, Aşağı Daşkəsən, Alaxançallı, Narzan, Gədəbəy, Slavyanka, Qabaqtəpə məşhur suları dünya əhəmiyyətlidir. 1925-ci ildə Göygöl adlı Dövlət Təbiət Qoruğu eyniadlı rayonda yaradılmışdır. Onun təşkil edilməsində əsas məqsəd Kiçik Qafqazın şimal-şərq nahiyəsinin kurortiqlimi vacib sayılan dağ-meşə, çəmən landşafını, dağ göllərini, eləcə də flora, faunasını

qorumaqdır. Şəmkir Dövlət Təbiət yasaqlığı eyniadlı rayon və bir qismi isə Göygöl ərazisində 1964-cü ildə qurulmuş. “Qarayazı” dövlət qoruğu 1978-ci ildə eyniadlı ovalığın təbiətini, Kür ətrafında olan tuqay meşələrini qorumaq üçün qurulmuşdur. Tovuz ərazisində də təbii rekreasiya potensialı çoxdur. Belə ki, qalın meşələr, sərin, bol sulu Turşsu, Atan, Fındıqlı , Böyrək suyu, Maral və b. bulaları , dağ yamacları üzrə yaşıllıqlar istirahət, əyləncə üçün çox əlverişlidir. Daşkəsən inzibati rayonunda da şəffaf, müalicəvi əhəmiyyətli sayılan Narzan, Turşsu, Qayğı, Qiblə, Seyid, Yumurtalı bulaqları turistlərin, yerli əhalinin ən çox getdiyi obyektlərdir. Bunddan əlavə burada “Narzan” adlı ailəvi istirahət kompleksi fəaliyyət göstərir. Xoşbulaq yaylağından danışdıqda, o əsasən xarici turistlərin tur təşkil etmək istədikləri məkandır. Gədəbəy inzibati bölgəsi də bitki, heyvanları ilə çox zəngin, müxtəlifdir. “Qizilağac” adlı qoruğu orada yerləşir. Ayı, Keçi-keçi, Cüyür, Cərgə və s. bulaqları, Mormor, Qızılca, Çaldaş mineral tərkibli su bulaqları öz gözəlliyi ilə göz oxşayır.

İqtisadi rayonda dünya əhəmiyyəti olan bir sıra tarix- mədəniyyət abidələri vardır: Qazaxda yerləşən XV əsrə aid Şəkər qala, Sınıq körpü XII əsr, Yuxari Əskiparada V əsr məbəd, paleolit dövrünə aid olunan Daşsalahlıda Damcılı mağarası, eləcə də general Əliağa Şıxlinskinin möhtəşəm abidələri, M.P.Vaqifin xatirə tipli ev muzeyi, “Kitabi Dədə Qorqud” 1300 illiyinə görə tərtib edilmiş monumental abidə ekskursiya, ziyarət obyektləri olmuşdur. Ağstafada neolit-tunc vaxtına uyğun olan Töyrətəpə yaşayış evi, Qazax rayonunda Baba Dərviş adlı yaşayış evi tunc dövrü, ilk dəmir dövrünə aid Göygöl rayonunda məbəd, Daşkəsəndə Xoşbulaq kurqanları isə əsasən tunc-ilk dəmir zamanına təsadüf edir, eləcə də qədimi Gəncə, Şəmkir şəhəriləri (orta əsrlər) və bu kimi arxeoloji nümunələr qorunur. Qazaxdan yazdıqda onun möhtəşəm xalça məktəbinin məhsullarının adlarını da qeyd etmək lazımdır. Onlardan “Ağqoyunlu”, “Dağ Kəsəmən”, “Damğalı”, “Qazaxça”, “Dörd Buynuz”, “Faxralı”, “Şıxlı”, “Çobankərə”, “Borçalı”, “Qaymaqlı” və bu kimi əsrarəngiz əl işli xalçalarımız dünya muzeylərində özünəməxsus yer tutur.

Göygöl rayonunun mədəni-tarixi nümunələrindən bir neçəsini qeyd edək. Ağ körpü (XII əsr), “İkigözlü körpü” ( XVI əsr), Türbə (XII əsr), Çaykənddə yaşayış evi, Qabriel kilsəsi, 1854-cü ilə aid Liiteran kilsəsi, Bir, iki, üç tağlı körpü, Qala (XII əsr), Anahid məbədi, “Üçgözlü körpü” (1896-cı il) və bu kimi bir sıra yerli əhəmiyyətli, qonaq cəlb edəb tarixi nümunələrimiz var. Bundan əlavə “Alban kilisəsi” (V-VI əsr), Yanıxlı kəndində olan məscid (XVII əsr), Qəribli, Abdal kənd ərazilərində qədim Alban məbədləri, Türbə kompleksi (XVII əsr), 8 guşəli türbə (XIX əsr), Sultan körpüsü (XIX əsr. Gədəbəy istiqamətində Qala qəsəbəsində qüllə (XVI əsr), Tağlı körpü (XIX əsr), Qız qalasi (ya da Namərd qala, IX əsr) aid olunur ( Abadov M.K, 2014; səh 127-130).

Gəncə çox qədim tarixə malik olduğundan onun nümunə ortamı daha çoxdur. Belə ki, Şeyx İbrahim türbəsi, Cümə Məscidi, eləcə də onun mədrəsəsi, Gəncəçay üzərindən qurulmuş olan Böyük, Kiçik Körpü (XII əsr), Ozan, Qızıl Hacılı, Şərəfxanlı, Bağbanlı, Şahsevən məscidləri, çoxlu karvansaralar, İmamzadə kompleksi, köhnə Şəhər hamamları və digər. Hələ orta əsrlərdə yazar Marko Polo Naftalan ərazisindən çıxan nefti dəri xəstəliklərinin müalicəsi kimi göstərmişdir. Ondan 70-dən çox xəstəliyin müalicəsində əhəmiyyətli dərəcədə istifadə edilir. Əsasən ürək-damar, əsəb, ginekoloji uroloji, dəri xəstəliklərinin sağaldılmasında əvəzsiz vasitədir. Hal-hazərda orada sanatoriya yaradılmışdır. Buranı beynəlxalq miqyaslı kurorta çevrilməsi üçün “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqram’ çərçivəsində Naftalanda böyük işlər görülmüşdür. İndiki dövrdə orada 7 özəl istirahət, sağlamlıq mərkəzi, “Naftalan” adlı Kurort sanatoriya Birliyi işləyir. Bu mərkəzlərə - Garabag Resort & Spa, Chinar Hotel & Spa, “Hotel by Rixos”, “Möcüzəli”, “Sehirli” Naftalan, “Şəfa vannaları”, Eyniadlı müalicə-sağlamlıq kompleksi. Gün ərzində burada 2000 nəfər turist, qonaq müalicə alıb şəfa tapa bilmək qabiliyyətindədir. 2018-ci il üzrə buraya gələn qonaq, turistlərin sayı 20 mini aşmışdır. İqtisadi rayon ölkə üzrə motel, hotel, mehmanxana tipli iaşə obyektlərində olan nömrələrin 7,7%-i əhatə edir.

Lənkaran iqtisadi rayon Azərbaycanın cənub-şərq hissəsində yerləşir. Bölgənin tərkibində Lənkəran, Lerik, Masallı, Astara, Cəlilabad, Yardımlı inzibati rayonları vardır. Sahəsi 6,07 min kv. km (ölkə ərazisinin 7%-i) tutur. Lənkəranın şimal-qərbində nahiyəsində okean səviyyəsindən təqribən 1090 metr hündürdə Meşəsu adlı mineral bulağı yerləşir. Bunun əsasında orda eyni adlı kurort-müalicə kompleksi tikilib istifadəyə verilmişdir. Meşə örtüyü ərazisinin 25%-ni tutur. Burada daha çox endemik, kol, relikt mənşəli bitkilərə rast gəlmək olur. Onlardan şabalıdıyarpaq palıdı, dəmirağacını, Qafqaz xurmasını, Lənkəran akasiyası kimi nadir, qiymətli varlıqlardır. Qızılağac, Hirkan kimi təbii qoruqları ərazidə olan turizm-rekreasiya əhəmiyyətini özündə etihva edir. Ən böyük çaylarından Lənkərançay, Bolqarçay, Təngərüçay, Viləşçay, Astaraçay, Göytəpəçay və digərlərini qeyd etmək olar. Xuqəbul, Hafthoni, Meşəsu, Vizəhoni, Fabhoni, Alaşa, Kiyəhoni və s. sağlamlıq, istirahət üçün əlverişlidir. Burada 30-50 metr arası dərinlikdən 35-50°C termal sular səthə çıxır.

İqtisadi rayonun Tarixi-mədəni hissəsinə gəldikdə isə Lənkəran qalası 1726-1727-ci illər aralığında İran qoşunlarından müdafiə olunmaq üçün inşa edilmişdir. Qızlar qalası adlı VIII nümunəsi Yuxarı Nüvədi kəndi yaxınlığında yerləşir. Bunlarla yanaşı Bəlləbur, Şandan qalalarını da qeyd etmək lazımdır. Ərkivan qalsının tikilməsi barədə A.A.Bakıxanovun yazdığı "Gülüstani-İrəm" əsərdə məlumat vardır. Cəlilabad bölgəsində Göytəpə məscidi (XVI əsr), Lerik rayonu ərazisində məscid (XIX əsr), Xamrava məscidi (XVIII əsr), Məmmədzalı kəndindəki məscidi (XIX əsr), Yardımlı nahiyəsində XVlll əsrə aid edilən bir sıra məscidlər var (Soltanova H.B, 2005; səh 253-255).

Ölkəmizin turizm potensialına görə öndə gələn Lənkəran iqtisadi rayonuna il üzrə yay fəslində buraya gələn turistlər xüsusən dənizkənarı çimərlikləri, dağətəyi zonalarda dincəlməyə daha çox üstünlük verirlər. Orada dulusçuluq sənəti üzrə bir sıra nümunələr, keramikadan düzəldilmiş suvenirlər, milli mətbəxə dair yeməklər nümayiş etdirilir. Azərbaycanda Respublikasında olan hotel, mehmanxana, motel yerli, xarici qonaqlar üçün nömrələrin 6,88%-i bu bölgənin payına düşür. İqtisadi

rayonun turizm, istirahət yerlərində 1196 sayda nömrə vardır. Onlardan 317-si 1-ci dərəcəli, 216-sı lüks, 663-ü isə əsasən turist dərəcəlidir. “Gölüstü”, “İsti su”, “Dəştvənd”, “Gülüstan” adlı turizm komplekslərində, ailəvi istirahət parklarında qonaq, turistlrin xoş istirahəti, müxtəlif idman, əyləncəli növləri ilə məşğul olmaq üçün ən yaxşı tərzdə şərait qurulmuşdur.

Dağlıq Şirvan iqtisadi rayonu ölkəmizin mərkəzini, Böyük Qafqazın cənub-şərq nahiyyəsini əhatə edir. Ərazisi 6,13 min kv. km-dir, Azərbaycanın 7,0%-ni təşkil edir. İsmayıllı, Ağsu, Şamaxı Qobustan inzibati rayonları tərkib hissəsidir. Bu zonalar üzrə dağ ətəyi, yüksək dağlıq hissələrdə günəşli saatlar 2200-2500, buludlu, dumanlı günləri çox olan orta dağlıqda 1900-2200 saat tərəddüd edir. Düzən nahiyələrdə illik ümumi radiasiya 130-135 kkal/sm2, alçaq dağlıqda isə bu rəqəm 120-124 kkal/sm2-dir. Qobustan, Şamaxı olan morfostruktur tipli palçıq vulkanları göz oxşayır. Dağlıq Şirvan bölgəsinin təbii rekreasiya ehtiyatlarına palçıq vulkanları, kurort iqlim, Pirqulu, İsmayıllı Dövlət Təbiət qoruğu, fauna, florası, təbii-mineral bulaqları vardır. 1968-ci ildə 1521 hektar zonada, Böyük Qafqazın şərq hissəsində Pirqulu qoruğu təsis edilib. Burada 520 növ çiçəkli, 50 tipdən çox dərman bitkisi vardır. 1981-ci ildə Böyük Qafqazın cənubunda, təbii sərvətləri qorumaq üçün 16700 ha sahədə İsmayıllı dövlət təbiət qoruğu salınmışdır. Dağlıq Şirvan üzrə Ağsuçay, Girdimançay, Pirsaatçaylarını xüsusi qeyd etmək olar. Bunlardan Ceyrankeçməz ilin çox zaman susuz keçir, bəzən Xəzər dənizinə tökülür. İqtisadi rayonda bir neçə hidreoloji ehtiyatları tənzimləmək üçün su anbarı qurulmuşdur. Bunlardan Şamaxı, Yekəxana, İsmayıllı, Ağsu, Çuxuryurd o zamandan bəri yerli insanlar tərəfindən dəri, yel, qadın xəstəliklərinin müalicəsində geniş istifadə edilir. Gələcək prespektiv, səhiyyə xidmətinin, bölgənin turizm rekreasiya əhəmiyyətini artırmaq məqsədilə Şamaxının Çağan, İsmayıllının Zərgəran adlı mineral sularından istifadə olunmaqla sanatoriya-müalicə mərkəzlərinin yaradılması nəzərə alınmışddır.

İqtisadi zonada tarixi-mədəni ehtiyatlarına baxdıqda: Şamaxıdakı Gülüstan qalası (XI-XII əsr), Qoşa Minarəli Cümə məscidi (743-cü il), Şahixəndan (XV əsr),

Yeddi Gümbəz-Şirvan xanlarının məzarları (XVIII-XIX əsr), Pirmərdəkan (XII-XIV əsr) məqbərəsi, İsmayıllı rayonunda qədim qalalar, İmamzadə piri, Pirqulu üzrə Astrofizika rəsədxanası və s. Pirquluda dəniz səviyyəsindən 1400 m hündürdə Astrofizika rəsədxanası tikilib. Onun güzgülü teleskopu diametrinə (2m) görə Avropada ikincidir. Rayon qış aylarında ərazi qarla örtülü olduğundan burda dağ xizək turizm növünü inkişaf etdirmək məqsədəuyğundur. Ağsu inzibati rayonunun ərazisi də tarixi nümunələrlə zəngindir. 11-i ölkə, 13-ü yerli əhəmiyyətli abidə olmaqla, ümumi 24 tarixi mədəniyyət formasiyası vardır. İsmayıllı ərazisinə gələn qonaq, turistlərin rayon barəsində geniş məlumat almaları üçün Heydər Əliyev Mərkəzi, Lahıc, Basqal tarix-mədəniyyət qoruqları, 2 ədəd tarix-diyarşünaslıq muzeyi buranın imicini təşkil edir. Lahıcda 108, Basqalda 23 tarixi nümunələrimiz mühafizə edilir. Ümumilikdə rayonda 233 sayda milli, mədəni obyektlərimiz qorunub saxlanılır. 1980-ci ildən etibarən Lahıc muzey-qoruğa çevrilmişdir. Basqal ərazisində XVII əsrə aid edilən hamam, məscid, eləcə də çoxsaylı qədim abidələr göz oxşayır. Xanagah kənd nahiyəsində Qız Qalası (VII əsr), Sulut qəsəbəsində Fitdağ qalası (XVIII əsr) bu cür nümunələrdir.

2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyi İsmayıllı rayonunu "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan etmişdir. Burada Mehranilər sülaləsinin nümayəndəsi olan Cavanşir tərəfindən eyniadlı qala da tikilmişdir. Xan qalası (XII-XIII əsr) mədəniyyət incisi hesab olunur. Mədəniyyət və Turizm Nazirliyinin köməkliyi, "Millenium Tourism Congress DMC"-nin yüksək təşkilatçılığı sayəsində "Azərbaycanda yeni turist marşrutlarını kəşf edək!" layihəsi çərçivəsində "Qırxotat", "Fit dağı" əsfanələri yaxşı strukturlu turizm marşrutları salınmışdır. Qobustan inzibati rayonu da qədimi, tarixi ənənəlrə malikdir. Məsələn- Şıx düzü kurqanları, Diri Baba türbəsi (XV əsr), b.e.ə. I-VII əsrləri əhatə edən Dağ Kolani kəndinin ərazisində qədim insan məskənləri, Şeyx düzü kurqanları, Şah Abbas karvansarasının xarabalıqları bunlara misaldır. Qobustan adlı Dövlət tarixi-bədii-mədəni Milli qoruğu Ölkəmizin daxilində arxeoloji nümunələr kompleksinin mühafizə olunduğu məkandır. Burada

xüsusən Mezolit  dövrü abidələri, məhşur qayaüstü rəsmləri, təsvirləri sərgi etdirilir. Həmçinin mağaralar, bulaqlar  və b. vardır.

Turistləri qarşılama, yerləşdirmə müəssisələri olan hotel, motel, mehmanxana tipli müəssisələrdə olan nömrələrin sayı ölkə üzrə 3,8%-i, iqtisadi rayonun payına düşür. İqtisadi rayonda istirahət mərkəzləri və yerləşdirmə müəssisələrinin sayı ildən-ilə artır. Son 5 il ərzində avropa standartlarına uyğun olan bir sıra "Şirvan Hotel & SPA", "Şato Monolit",  "'Palace Platinum By Rixos" adlı otellərin tikilib istifadəyə verilmişdir. "Şahdağ parkı"nın hal-hazırda mövcud olması öz növbəsində Şamaxı, İsmayıllı, Ağsu bölgələrinin dağlıq nahiyələrində idman və dağ turizminin yaxşı inkişafı sayəsində 30 min kənd əhalisi işlə təmin edilmişdir.

Aran iqtisadi rayon Ölkəmizin mərkəzi və şərq nahiyələrini əhatələyir. Ərazisi 21,1 min kv$^{2}$m-dir (Azərbaycanın 24,4%-ni) tutur. Tərkibinə Imişli, Neftçala, Sabirabad,  Ağdaş, Hacıqabul,  Ucar, Göyçay, Salyan, Kürdəmir, Zərdab, Ağcabədi, Beyləqan, Bərdə,  Saatlı, Biləsuvar, inzibati rayonları, Mingəçevir, Yevlax, Şirvan şəhərləri daxildir. Asiya-Avropa nəqliyyat sisteminin tarixi İpək yolunun, Bakı-Qazax turizm marşrutu, eləcə də Bakı-Tbilisi-Qars qatar xəttinin buradan keçməsi  bölgənin turizm əlaqələrinin genişlənməsində çox mühüm sayılır.

Təbii-rekreasiya ehtiyatlardan necə gəldi istifadə edilməsi tuqay meşələrinin qırılmasında özünü daha aydın büruzə verir.  Bundan əlavə Ağgöl, Şirvan Milli parklarında, Qızılağac, Türyançay adlı dövlət qoruqlarında, yasaqlıqlarda mühafizə olunan, eyni zamanda artırılan flora və fauna aləmi vardır. Rayon daxilində Şirvan, Ağgöl Milli parkları, gölləri, bir neçə ovçuluq təsərrüfatlarından rekreasiya nümunələri olaraq istifadə oluna bilər. Sarısu gölündə bir sıra ov quşları, müxtəlif balıq növləri qorunur. Onun çox hissəsi isə qamışlıq, bataqlıqdan ibarətdir. Adıçəkilən yerlərə daha çox ərəblər ov turizmi məqsədilə çoxsaylı səfərlər edirlər. Mingəçevir su anbarı da  rekreasiya ehtiyatlarının olmasına baxmayaraq, heç də yaxşı istifadə edilmir.

Neftçala, Kürdəmir, Salyan, Əlibayramlı kimi rayonlarda yüksək temperaturlu yeraltı suların bir qismindən yerli əhali dəri-zöhrəvi, oynaq, revmatizm kimi xəstəliklərin müalicəsində istifadə edilir. Kürdəmirin Mollakəntdə "Şəfqət" sanatoriyası Carlı adlı bölgədə çıxan isti radon su əsasında fəaliyyət göstərir. Bundan əlavə Babazənən vulkanından hasil onunan palçıq müalicəvi əhəmiyyətli buranı turistlər, qonaqları cəlb edir. Bərdə ərazisində qaynar halda çıxan kükürdü su bulağı olan-İstisu yerləşir. Burada həmçinin vanna qəbul etmək üçün şərait vardır. Onu da qeyd etməliyik ki, bu müalicəxananın müasirləşdirilməsinə, yenidən qurulmasına ehtiyac duyulur.

İqtisadi bölgədə dünya səviyyəli daşınmaz tarixi-mədəniyyət abidələr qrupuna Bərdə bölgəsində olan "Allah-Allah" türbəsi (1322-ci il) daxil olunmuşdur. Bundan əlavə Köhnə Bərdə (orta əsr), Beyləqanın Kəbirli kəndində yerləşmiş Örənqala yaşayış məkanı (orta dövr). Mingəçevir Dram Teatr mərkəzi, Bərdə rayonunda Bəhmən Mirzənin türbəsi (XVIII əsr), İbrahim məscidi, qəbirstanlığı, Hacıqabulun Qayalı Baloğlan kəndi yaxınlığında Pir Hüseyn xanəgahı (XIII əsr) möhtəşəm memarlıq nümunələridir. Ağcabədi şəhəri ərazisində Sarıbaştəpə, Üçtəpə, Gültəpə, Şaxtəpə kurqanları (enolit, tunc dövrü), həmçinin Hacılar, Boyat, Xoşbulaq, Hindarx isə arxeoloji abidələrdir. Göyçay rayonunun Ərəbcəbirli kəndi yaxınlığında küp qəbirlər, nekropollar qədim nümunələrdəndir. Hacıqabul rayonunda kurqanlar, Güngörməz müdafiə tipli qala (orta əsrlər) vardır. Yevlax ərazisində Yolacaq, Porzova, Qaraməmmədli, Bozayran, Arvana kimi kəndlərdə qədim dövr, olta əsr yaşayış evləri, kurqanlar, küp qəbirlərə rast gəlinir. İmişli rayonumuzda olan Muxurtəpə yaşayış yeri (XI-XIV əsr), Abiştəpə, Qızıltəpə ilkin orta dövrlərə aid edilən yaşayış məskənləri, Yedditəpə kəndində kurqanlar.

Neftçala rayonunun Xoll Qaraqaşlı, Boyat kəndləri ərazilərində II-XVII əsr eyni adlı yaşayış obyektlərini qeyd etmək olar. Bu il şəhərdə istifadyə verilən avtomobil sənayesi öz növbəsində minlərlə sakini işlə təmin etmiş oldu. Bundan əlavə bir neçə-Duzdağ, Qolovaçev, Qırılıq gölü, Oblivnoy adası, sualtı palçıq vulkanlarını,

eləcə də yod brom zavodu, balıq kombinatı, neft meəssisələrini da qeyd edək. Saatlı bölgəsində Qaralar, Məmmədabad kənd yerlərində nekropollar (e.ə.II-I əsr), Sabirabadın Zəngənə kəndi yaxınlığında 4-cü əsrə aid Atropatena dövləti vaxtı qurulmuş Ultan qalası, Cavad nekropolu, Salyan bölgəsində Marışlı, Malımudabad, I Babacan adlı yaşayış yerləri (e.ə. I minillik), Ağzıbir, Kürsəngi, Durovdağ, Babazənən, Qırovdağ, Dovşan-dağı, Duzdağ, Qalmas, Mişovdağ, Bəndovan, Xıdırlı kimi palçıq vulkanlarının bəziləri rekreasiya baxımından yararlı sayılır. Mingəçevir şəhərində 7 ədəd turizm obyekti fəaliyyət göstərir, onlardan 5-i Mədəniyyət və Turizm Nazirliyinin tərtib etdiyi rəsmi lisenziyasını almışdır. 2011-ci ildə bu ərazidə turistlərin, qonaqların hərəkətini yaxşılaşdırmaq üçün turizm xəritəsi hazırlanmışdır. Göyçay rayonunda hər il turistlərin marağına səbəb olan nar bayramının keçirilməsidir. Bu qonaq, turist cəlb etmək məqsədilə çox yaxşı üsuldur. Lakin onun reklamının inkişaf etdirilməsinə ehtiyac duyulur.

2004-2008-ci illər ərzində ölkənin regionlarının sosial-iqtisadi tərəqqisinə dair Dövlət Proqramı"nda Aran iqtisadi zonasında turizmin inkişafı baxımından görüləsi olan tədbirlər digər rayonlara nisbətən çox az oldu. Mingəçevirdə "Kür" Olimpiya idman mərkəzinin qurulması, eləcə də avarçəkmə idmanı bazasının yenidən bərpası plana daxil idi. Lakin növbəti illərdə bu bölgədə "Kür" Olimpiya bölməsi yenilənmiş və 2015-ci ildə I Avropa oyunlarda avarçəkmə tipli yarışlar burada reallaşdı. Hal-hazırda isə "Kür Hotel" mehmanxana formalı mərkəz inşa edilmiş, çoxsaylı abadlıq işləri aparılmışdır. Aran iqtisadi rayonunda qonaqlar, turistlər üçü nəzərdə tutulmuş hotel, motel, mehmanxana tipli müəssisələrdə olan nömrələrin sayı baxımından 2005-ci il statistikasında ölkə üzrə 8,7% idisə, 2015-cü ildə isə 5,0% olmuşdur. Rəqəmlərdən belə qənaətət gəlmək olur ki, azalma müşahidə edilir. Nəqliyyatla təminat, infrastrukturun indiki səviyyəsi ürəkaçan deyildir. Bölgə hava, dəmir, çay və avtomobil nəqliyyatı ilə təmsil olunur.

Naxçıvan iqtisadi rayon öz mövqeyinə görə Azərbaycanın digər bölgələrindən fərqlənir. Yeganə ərazimizdir ki, 4 istiqamətdə xarici ölkələrlə sərhəddir. Onun

daxilində Culfa, Şərur,  Babək, Ordubad, Sədərək, Kəngərli, Şahbuz inzibati rayonları və  Naxçıvan şəhəri var. Ümumi sahəsi 5,5 min kv.km (ölkə ərazisinin 6,3%-i) əhatə edir. Günəş radiasiyasının cəm miqdarına görə (150-160 k/kal sm2) Cənubi Qafqaz regionu daxilində maksimum miqdar sayılır. Mütləq minimum (-31°C) Dərvişlər kəndi, maksimum temperatur (44°C) Culfa rayonu. Burada 250-dən artıq zəngin mineral bulaqlar təbiəti zənginləşdirir. Ölkəmizdə mövcud  mineral su emmiqdarının 60%-i, karbon qazlı ehtiyatların isə 35%-i bu İqtisadi rayonun payına düşür. Onların çoxunun temperaturu 8-22°C arası tərəddüd edir. Lakin“Sirab”, “Darıdağ” kimi buruq tipli quyularda hərarəti 50°C-dən artıq olansular aşkar edilmişdir. Kənd təsərrüfatı xüsusən Şərur, Babək, sənaye forması Naxçıvanda  inkişaf etmişdir. Bölgədə 30-dan çox yerləşmə obyekti, 60-dan artıq iaşə müəssisəsi öz fəaliyyətini davam etdirir. Onu da qeyd edək ki, “Badamlı”, “Duz-Dağ”  fizioterapiya müalicəxanaları, “Darıdağ” arsenli su səhiyyə kompleksi ən yeni standartlar əsasında müasirləşdirilmişdir. 2006-cı ildə  Babək rayonu ərazisində dəniz səviyyəsindən 1173m hündürlükdə eyniadlı mağarada “Duz-Dağ” sanatoriyası istifadəyə verilmişdir. 1979-cu ildən fəaliyyət göstərən obyekt 6 mərtəbədən ibarətdir. “Darıdağ” balneoloji tipli şəfa mərkəzi 1978-ci ildə Culfada , eyniadlı mineral su yatağı ərazisındə tikilmişdir. Bu şəfalı  su vasitəsilə dəri, əsəb, ginekoloji, ürək-damar, oynaq ginekoloji və s. xəstəliklər inqalyasiya yolu ilə müalicə edilir. “Badamlı” fizioterapiya kompleksi 1980-ci ildə Şahbuz rayonu daxilində, dəniz səviyyəsindən 1274 m yüksəklikdə, eyniadlı mineral su yatağında qurulmuşdur. Müalicəxanada sidik kanalları, mədə-bağırsaq, qara ciyərin bir sıra xəstəlikləri müalicə edilir. 1950-1951-ci illərdə 1100 m hündürlükdə “Sirab” mineral suyu əsasında sudoldurma sexi fəaliyyətə başladı.

Naxçıvan əhalisinin müqəddəs bildiyi yerlərdən Culfa ərazisində olan Əzhabi-kəhf-i xüsusən qeyd etməliyik. Dəniz səviyyəsindən 1665m yüksəklikdə eyniadlı dağ, mağarada pir yeridir. Buraya il əraində minlərlə turist, qonaq gəlir. Gəmiqaya dağı, Həmçinin İlandağ (Elandağ). Burada aşkar olunmuş yazı e.ə. 820–810-cu illəri əhatə edən qədimi sayılan  mixi yazı Urartu dövlətinə xasdır. Nuh peyğəmbərin gəmisi

rəvayətə görə bura toxunub qalmışdır. Babək rayonunda isə Nəhacir yüksəkliyi də bu qəbildəndir.

Təbii-rekreasiya ehtiyatı kimi həmçinin müalicə əhəmiyyətli sayılan iqlim kurort məkanı Batabat yaylasıdır. 2003-cü ildə bu nahiyədə Şahbuz Dövlət Təbiət Qoruğu formalaşdırılmışdır. Batabat yaylağının təbii gölü, heyrətamiz dağ havası, meşə örtüyü, Südlübulaq, Zorbulaq tipli şirin suları, “Narzan” adlı mineral suları ürək-damar, əsəb kimi xəstəlikləri müalicə edir. Mineral sular sırasında məşhur müalicə əhəmiyyətli olanları Şahbuz ərazisində “Narzan” tipli “Badamlı”, Culfa qəsəbəsində “Mineqorsk” formasiyalı “Nəhəcir”, “Darıdağ”, Babək rayonu daxilidnə “Borjomi” növlü “Sirab”, "Pyatiqorsk” qəbildən sayılan “Vayxır”, Ordubadda “Tivi” və digərləridir. 3 min il bundan əvvəllərə qədər Naxçıvan ərazisindən duz hasil edilmişdir. Əldə olunan duz ticarət baxımından Şərq və Qərb ölkələrinə daparılmışdır. “Nehrəm”, “Duzdağ”, “Püsyan” adlı yataqları vardır.

Tarixi-mədəni turizm ehtiyatlarına gəldikdə isə çox zəngin sayıla bilər. Naxçıvan şəhərində “Möminə Xatun”, “Yusif Küseyir”, “Nəimi” türbləri, Əlincə qalasi, Gilanın xarabalıqları, köhnə körpülər və bu qəbildən 1162 tarixi-mədəni nümunələrdən 649-u yerli, 58-i dünya, 455-i isə ölkə əhəmiyyətlidir. Bundan əlavə 1 ədəd tarix-memarlıq, 1 sayda tarixi-bədii, 2 dənə tarix-mədəniyyət qoruğu, 2 ziyarətgah mərkəzi, 3 ədəd teatr mövcuddur. Muxtar ərazidə 21 muzey vardır. “Üzən ada” adlı Batabat, Qanlı göl xüsusən ekoturizmin təşkili üçün çox böyük potensiala malikdir (H.B. Soltanova,2007:s.328-329).

İqtisadi rayonda 24 otel, motel, mehmanxana tipli müəssisələr vardır ki, onladan 10-u Naxçıvanın payına düşür. Burada “Təbriz” adlı 5 ulduzlu mehmanxanası fəaliyyət göstərir. Qonşu dövlətlərlə siyasi, iqtisadi, mədəni əlaqələrin möhkəmləndirilməsi məqsədilə İran Respublikasına məxsus “Nil Çeşmi Qostar”, “Didari Seyri Giti” nəqliyyat müəssisələri vasitəsilə Naxçıvan-Urmiya, Naxçıvan-Tehran-Təbriz, eyni zamanda əks istiqamətlərdə baş tutan marşrutlar ilə sərnişin daşıması məqsədilə müqavilələr bağlanmışdır. 2007-ci ildə Azərbaycanın öz

ərazisindən gəliş-gedişi rahatlaşdırmaq üçün Tran ərazisindən keçməklə Bakı-Naxçıvan marşrutu sayəsində daimi avtobus reysləri işə düşmüşdür. Eləcə də Türkiyə ilə "Can İqdır", "İqdırlı Turizm" maşurut müəssisələri ilə bağlanmış müqavilələrə görə Ankara, İstanbul, Antalya, İzmir və bu kimi iri şəhərlərə sərnişin çatdırmaq xidməti göstərilməkdədir. Ölkəmizi Türkiyə ilə əlaqələndirən tək quru yolu sayılan Naxçıvan-Sədərək magistral əsasən Şərur, Kəngərli, Sədərək inzibati ərazilərini əlaqələndirir. 2004-ci ildən ən yeni standartlara uyğun Naxçıvan Beynəlxalq Hava Limanı fəaliyyət göstərir. Hal-hazırda buradan demək olar ki, hər gün Bakı və Gəncə bölgələrinə təyyarələr yola düşür. Eyni vaxtda Bakı-Naxçıvan-İstanbul, Moskva-Naxçıvan istiqamətlərdə uçuşlar baş tutur. 2006-cı ildə burada "Turizm, inkişaf və perspektivlər" adı altında keçirilmiş olan beynəlxalq konfrans İqtisadi zonada turizm sənayesinin inkişaf etdirilməsi məqsədilə yeni layihələrin hazırlanıb, tətbiqi üstünlük yaradır.

Yuxarı Qarabağ iqtisadi rayon Kiçik Qafqazın cənub-şərq və şərq nahiyəsində düzən, dağ ətəyi, dağlıq zonada yerləşir. Bu bölgənin Ermənistana qonşu yerləşməsi onun iqtisadi, nəqliyyat-coğrafi vəziyyətinin xeyli pisləşməsinə gətirib çıxarmışdır. Tərkibində Füzuli, Ağdam, Tərtər, Cəbrayıl, Xocavənd, Xocalı, Şuşa inzibati rayonları və Xankəndi şəhəri mövcuddur.

1991-1993-cü illər aralığında Xocavənd, Xocalı, Cəbrayıl rayonları və Xankəndi şəhəri tamamilə, Ağdam və Füzuli rayonlarının əraziləri isə qismən (Ağdamın hazırda yalnız 10 kəndi Azərbaycanın nəzarəti altındadır) və Füzuli (rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır) Ermənistan tərəfindən işğal olunmuşdur. Bu da iqtisadi rayonun ərazisinin təxminən 90%-ni təşkil edir (H.B. Soltanova,2007:s.343).

Sahəsi 7,33 min kv.km (ölkə ərazisinin 8,46%-i) tutur. Bakı-Şuşa turizm marşrutu bölgəyə xasdır. Turizm üzrə ixtisaslaşma əsasən sağlamlıq, dərketmə, müalicə, idman istiqamətində olmuşdur. Orta illik temperatur yanvar ayında düzən, dağətəyi ərazilərdə 2-0,5°C, hündür dağlıqda (-5-13°C), İyul ayında eyni qayda ilə

25-26°C və 15-14°C arası tərəddüd edir. İl ərzində yağıntı alçaqdağlıqda 500-600 mm, dağlıq zonalarsa 800-950 mm təşkil edir. İqtisadi rayonda 120-dən çox mineral bulaq mövcuddur. Bunlardan Şuşa rayonundakı Şırlan, Turşsu bulaqlarıdır. Ərazisinin 30%-i meşəlikdən ibarətdir.

Tarixi-mədəni ehtiyatlarına gəldikdə isə Ağdam rayonunda türbə (XIX əsr), Cəbrayılda 11, 15 tağdan ibarət (Xl-XIII əsr) Xudafərin körpüləri; həmçinin dünya səviyyəli arxeoloji nümunələrə Füzulidəki Azıx, Tağlar mağaraları (əsasən paleolit dövrü), Ağdamın Əfətli kəndi ətrafında Çalağantopə, Üzərliktəpə adlı yaşayış məskəni (eneolit, tunc dövrü), Tərtər ərazisində Borsunlu kurqanları (tunc, ilk dəmir), Xocalı, Niftalı kruqlanları da eyni dövrə aid olunur. Qaldı ki ölkə əhəmiyyətli memarlıq obyektlərinə Xocavənd rayonunda 16, Xocalı zonasında 6 alban məbədi (IV-VI əsr) mövcuddur. Şuşa inzibatı nahiyəsində XVIII yüilliyə aid edilən xanların sarayları, qəsrləri, həmçinin məscidlər, türbələr rast gəlinir. Çox böyük təəsüf hissi ilə qeyd etməliyik ki, iqtisadi bölgənin demək olar ki çox sərvətləri, eləcə də turizm-rekreasiya varlığı ermənilər istismar, talan edilir. 2015-ci il məlumatına görə bir sıra məqsədlər üçün oraya səfər edənlər 560 nəfər təşkil etmişdir.

Kəlbəcər-Laçın iqtisadi rayon Azərbaycanın cənub-qərb hissəsində yerləşir. Qubadlı, Laçın, Kəlbəcər, Zəngilan inzibati vahidlərini əhatə edir. Sahəsi 6,42$km^2$ (ölkə ərazisinin 7,4 %-i) tutur. Bütün rayonlar ermənilər tərəfindən işğal edilib. Bölgədə dağlıq landşaft daha çoxluq təşkil edir. İqtisadi rayon müxtəlif mənşəli mineral-xammal ehtiyatları vardır. Azərbaycanda Respublikasında mövcud olan mineral su ehtiyatının təqribən 33%-i bu rayonunun payına düşür. Qoturlu,Yuxarı və Aşağı İstisu, Keşdək, Turxun, Minkənd kimi soyuq su tipli mineral bulaqları əsasən müalicəvi əhəmiyyətə malikdir. Termal tipli suların 60-100°C təşkil edir. İşğal olunan vaxta qədər İstisu adı altında kurort-müalicə sanatoriyası işləyirdi.

Tarixi-mədəni abidələrə Kəlbəcərin Vəngli kəndində ərazisində Gəncəbasar, Xudavəng monastrı (XIII əsr), Qarnakar, Çıldıran, Qocaqot kənd nahiyələrində alban məbədləri, ilk-orta tunc zamanlarına aid olunan dövrünə aid nekropollar, yaşayış

yerləri, Qubadlıdakı Göy qala (V əsr), türbələr (XIV yüzillik), mağara məbədi, Laçın rayonunda türbələr (XIV-XVIII aralığı), kurqanlar (dəmir dövrü), mağara tipli məbəd (V əsr), Zəngilanın Əmirxanlı kəndində möhtəşəm Qız qalası (XII), Məmmədbəyli ərazisində isə səkkizguşəli türbə (XIV əsr) tarixi-mədəni turizm nümunələrindən sayılır. Kəlbəcər-Laçın iqtisadi ərazisi bütünlükdə ermənilər tərəfindən işğal edildiyindən 1992-ci ildən bu yana orada turizm fəaliyyəti tamamilə dondurulmuşdur.

## 3.2. İqtisadi rayonlarda olan rekreasiya ehtiyatlarında istifadə problemləri və həlli yolları

İlk bölümdə Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə mövcud olan rekreasiya ehtiyatları haqqında məlumat vermişik. Bu punkda isə İnzibati bölgələrimizdə var olan və müxtəlif səbəblərdən istifadəsi mümkün olmayan və ya əlçatmaz olma səbəblərini araşdıracıq. Bütün bunlardan əlavə Azərbaycanda mövcud olan turizmin müxtəlif növlərinin (xüsusən ekoturizm, biznes, kurort-sağlamlıq, mədəni) yenidən təşkil olunması, inkişaf etdirilməsi vacib məsələdir.

Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə şərait yaradır. Bu beynəlxalq qurumlar arasında Dünya Turizm Təşkilatının, İslam Konfransı Təşkilatının, GUAM-ın, həmçinin Müstəqil Dövlətlər Birliyinin və digər təşkilatların adlarını çəkmək olar. Eyni zamanda, Azərbaycan turizm sahəsində zəngin təcrübəsi olan Türkiyə, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Belarus, Yunanıstan, Moldova, Qətər və digər ölkələrlə bu sahədə əməkdaşlığa dair hökumətlərarası sazişlər imzalayıb. Hazırda bir sıra digər dövlətlərlə də analoji sazişlərin bağlanması ilə bağlı müzakirələr aparılır ( http:www.anl.az)

Ölkəmizin zəngin tarixinə nəzər saldıqda turizm sektorunun iqtisadiyyatımıza təsirinin və bu bölmənin inkişafı üzrə qəbul edilən qanunlar, qərarlar strateji hədf üçün vacib addımlar sayılmalıdır. Bu sektor üzrə daha ətraflı isə SWOT analiz cədvəli vasitəsilə göstərilmişdir.

**Cədvəl 2. Swot təhlil cədvəli**



## Güclü tərəfləri

1) sosial-mədəni xüsusiyyətlrin varlığı
- 2) kifayət qədər əlverişli sayıla bilən 8 iqlim tipinin mövcud olması
- 3) çoxlu sayda tarixi-mədəni abidələrimiz, eləcə də zəngin milli irs
- 4) həm şərqi, həm də qərbi tərənnüm edən memarlıq nümunələrimiz
- 5) geniş ərazidə yayılmış flora və fauna növləri
- 6) Avropa-Asiya qitələri arasında tranzit sayıla bilən əlverişli coğrafi mövqedə yerləşməsi, eləcə də qədimi "İpək Yolu" ərazimizdən keçməsi
- 7) bol olan hidroloji rekreasiya ehtiyatları, həmçinin qeyri-adi təbiət nümunələrinin mövcud olması
- 8) bənzərsiz, böyük Milli parkların və istirahət zonalarının movcudluğu
- 9) bəzi iqtisadi rayonlarımızda kustar sənətkarlığın, əl sənəti nümunələrinin varlığı
- 10) asudə qalan vaxtın daha yaxşı keçirilməsi üçün əyləncə mərkəzləri, restoran, kafelərin olması



## Zəif tərəfləri

- 1) regionlarda olan turizm-rekreasiya potensialından tam olaraq optimal səviyyədə istifadə edilməməsi
- 2) tarixi, təbii, mədəni irsin yetərincə təbliq olunmaması, həmçinin gələn xarici turistlərin daha çox üstünlük verdiyi mərkəzlərin Abşeron ( Bakı) ərazisində yerləşməsi
- 3) Bakı ərazisi üzrə ekoloji, demoqrafik yüklənmənin çoxalması
- 4) Ölkəmizin regionlarında olan tarixi kəndlərin, ərazilərin nəqliyyat, qonaqlama infrastrukturu, rabitə, həmçinin kommunikasiya sisteminin vəziyyətinin ürəkaçan səviyyədə olmaması
- 5) turizm-informasiya sistemlərində bölgələrimizin movcud olan turizm üzrə statistik məlumatların zəifliyi
- 7) Ölkəmizlə əlaqəli olan bukletlərin, broşların yetərincə lazımı səviyyədə hazırlanmaması
- 8) dəniz və çimərlik turizminin daha da inkişaf etdirilmə imkanından yetərincə yararlanmamaq
- 9) respublikamızın ayrı-ayrı bölgələrində ekskursiya xidmətlərinin yerinə yetirilməsində bələdçilərə, gidlərə olan ehtiyacların bütöv halda ödənilməməsi

**İmkanlar**



- 1) Respublikada beynəlxalq tədbirlərin keçirilməsi üçün geniş imkanların olması;
- 3) ölkəyə gələn turistlərin əsasən sənaye sektoru ilə bağlı yüksək biznes strukturlarım təmsil etməsi;
- 4) turizm sənayesini maliyyə vəsaiti ilə təmin etmək üçün büdcə imkanları;
- 5) ölkədə neftlə bağlı şirkətlərin, digər böyük yerli və xarici kampaniyaların öz əməkdaşlarının sağlamlıqlarının qorunmasına və bərpasına olan maraq;
- 6) yerli və xarici investorların turizm sektoruna cəlb olunması;
- 7) Azərbaycanm Avropa Birliyi ilə “yeni qonşuluq siyasəti” çərçivəsində olan əməkdaşlığı:
- 9) ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması çərçivəsində respublika hökumətinin yeritdiyi siyasət.

**Təhlükələr**



- 1) ölkə ərzimizin 20%-nin Ermənistan tərəfindən işğalı, bundan əlavə Dağlıq Qarabağ məsələsinin olması, eləcə də istınilən zaman müharibənin başlaması təhlükəsinin olması
- 2) bəzi regionlarımızda yoxsulluğun hələ də davam etməsi, iş yerlərinin lazımı miqdarda olmaması
- 3) respublikada ekoloji gərginliyin yüksək olması;
- 4) ən vacib məsələ isə ölkəmizdə mövcud olan turizm obyektlərində qiymətlərin yüksək olması və aşağı təbəqə üçün əlçatmazlığı, buna görə də getmə turizminin geniş miqyas alması, qonşu dövlətlərdə fəaliyyət göstərən turizm şirkətlərinin tiurist, qonaqlara təklif etmiş olduğu beynəlxalq səviyyəli xidmətin keyfiyyətinin yüksək, qiymətinin aşağı olması onları daha rentyabelli edir.

**Mənbə**: Müəllif tərəfindən tərtib edilmişdir.

Ölkə daxilində 2015-ci il statistikasına görə 2 milyon Azərbaycan vətəndaşı səyahət edib ki, bu da pis nəticə deyil. Azərbaycanın turizm-rekreasiya ehtiyatlarının istifadəsi haqqında danışarkən Ölkəmizin başçısı Preziden İlham Əliyev tərəfindən 2016-cı il 16 mart tarixində strateji yol xəritəsinin tərtibi barədə müvafiq tapşırığından da yararlanmağa çalışdım. Belə ki, son 5 il ərzində turizm üzrə sahibkarlıq subyektləri 4,5%, məşğulluq 6%, turizm baxımından gələn xaricilərin sayı isə 8,5% artmışdır. Ölkəmizdə turizm ÜDM-in 2,8-3%-ni, məşğulluğun isə 2,7%-ni təşkil edir. Bu göstəricidə Qazaxıstan, İran, Rusiya, Yaxın və Orta Şərq ölkələrini qabaqlayırıq. Yuxarıda qeyd etdiyim reklam-təbliqat işlərinin lazımı səviyyədə olmaması da

göstərilən problemlər arasındadır. Strateji yol xəritəsində isə bunun həlli üçün Milli Turizm Təbliğat Bürosunun yaradılması haqqında strateji hədəf vardır. Bu mərkəz ilk olaraq Abşeron iqtisadi rayonunda tətbiq ediləcək. Çünki 2015-ci ilin mövcud statistikasına görə ölkəmizdə olan cəm mehmanxa üzrə otaqların 43%-i, turistlərin 64%-i təxminən 840 min, götürülmüş gəlirlərin isə 82%-i Bakı şəhərinə aiddir. 2016-cı il məlumatına görə mehmanxanaların doluluq vəziyyəti 32% olmuşdur ki, bu da dünya səviyyəsində müqayisə üçün çox aşağı nəticədir. Bunun əsas səbəbi isə yerləşmə müəsisələrinin çoxu kütləvi deyil, xüsusən işguzar turizm üzrə hədəflənilməsidir. Büro Bakının brendini formalaşdıracaq. Bu rəqəmlərdən bir nüans aydın olur ki, kordinasiya istənilənvəziyyətdə deyil. Məlumat mərkəzlərdə olan informasiyaların çatışmazlığı ölkəyə səyahət edən turistlərin önəmli olan tarixi-turizm obyektlərimizlə tanış ola bilmirlər. Eləcə də “Yanardağ”, “Atəşgah məbədi, Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Qobustan", həmçinin palçıq vulkanlarına, regionlarımız üzrə təşkil olunan turların, nəqliyyat vasitələrinin, bələdçilik məlumatlarının daha da təkminləşdirilməsi vacib məsələlərdəndir.

Milli parklarımızda olan turizm-rekreasiya amilləri ekoturizm üçün də yararlıdır. Lakin bu ərazilərə göstərilən qayğı istənilən səviyyədə deyil. Onların sayının artırılması, bələdçilər vasitəsilə gündəlik-həftəlik turların təşkili nəzərdə tutulması vacibdir. Mədəni turizmin inkişafı üçün lazım olan amillərdən ( Böyük İpək Yolu, tarixi döyüş əraziləri, karvansara yolları və s. ) istifadə aşağı səviyyədədir. Həmçinin Naftalan nefti və ondan hazırlanan məhsullar üzrə yetəricə marketinq təbliğinin olmaması, Şabran və Naftalanda olan spa, sağlamlıq sanatoriyalarının lazımı səviyyədə qurulmaması, Duzdağın faydalı effekti barədə informasiyanın lazımınca təşviq edilməməsi. Qeyd etdiyim kimi turistlər, qonaqlar üçün qonaqlama, qidalanma obyektlərində olduğu kimi nəqliyyat sistemində də həm infrastruktur, həm qiymət baxımından çatışmayan cəhətləri var. Statistikaya nəzər saldıqda hava, quru nəqliyyatının tarif qiymələri qonşu, Yaxın və Orta Şərq ölkələrinə baxdıqda çox bahadır. Şübhəsiz ki, ölkəmizə gələn turistlərin 75%-i hava uçuşundan istifadə edir.

Bütün bunlarla yanaşı ölkəmizi turizmin mövsümilik problemindən çıxarmaq məqsədilə əsasən alternativ turizm növlərinə: kənd, ekoturizm, işguzar, mədəni üstünlük vermək və bu sahədə lazımı işlər görmək lazımdır.

Bu Strateji Yol Xəritəsi iki əsas məqsəd üzərində qurulmuşdur: sektor üzrə əsas stimullaşdırıcı mexanizmlərə əlavə olaraq, ixtisaslaşmış turizm sahələri üzrə Bakı və regionların inkişaf etdirilməsi. Bu yanaşmalardan biri də turizm potensialı zəngin olan müvafiq ərazilərdə turizm və rekreasiya zonalarının-TRZ yaradılmasıdır. TRZ-lərin yaradılması müvafiq ərazilərdə ətraf mühitin və mədəni irsin mühafizəsinə, bölgənin turizm potensialından kompleks və səmərəli istifadə olunmasına, investisiya üçün əlverişli şəraitin formalaşdırılmasına, regionlarda yeni iş yerlərinin açılmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə, məhsul çeşidinin artırılmasına, turizmə dair statistik məlumatların tam şəkildə toplanılmasına, idarəetmə, tənzimləmə və əlaqələndirmə tədbirlərinin daha səmərəli həyata keçirilməsinə, müasir standartlara cavab verən, müxtəlif çeşidli və yüksək keyfiyyətli infrastrukturun yaradılmasına imkan verir (https://static.president.az/pdf/38542.pdf s,483).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiyanı tərtib edərkən Azərbaycan Respublikasında mövcud olan bir sıra rekreasiya ehtiyatları ilə tanış olduq. Ölkəmiz iqlim potensialına görə çox zəngindir. Lakin əsas nüans turizm günlərinin az olmasıdır (cəmi 70-75 gün). Bu isə öz növbəsində qoyulan qiymətlərə birbaşa təsir göstərir və Respublikamıza gələn turist sayına mənfi təsir edir. Bunları nəzərə alaraq ayrı-ayrı bölgələrimizdə turizmin bir sıra alternativ növlərinin yaradılması vacib sayılır. Qış fəslində qağlıq və dağətəyi zonalarda qış turizmi üçün yararlı sahənin olması, şimal, cənub-şərq nahiyyədə meşə zolağının, eləcə də milli parkların mövcudluğu burada ekoturizm, məcara turizminin inkişafı üçün lüzum yaradır. Şərq hissədə Xəzər dənizinin olması çimərlik turizmi üçün əvəzsizdir. Lakin onun da bir sıra çatışmazlıqları mövcuddur. Belə ki, Avropa ölkələrindəki kimi burda da mavi bayraq nişanının alınması, çirkli tullantılardan azad edilməsi və ən əsası kruiz gəmi turlarının təşkil edilməsi görüləcək tədbirlər içərisindədir. Şimaldan Şərqə qədər uzana "Böyük İpək Yolu" üzrə maşrutları bərpa etmək, müalicəvi neft, duz ehtiyatlarımızın varlığı da eyniadlı turizm növünün təkminləşdirilməsi üçün bir ünsürdür. Onu da qeyd edək ki, turizm sahəsində problemləri dissertasiyama əlavə edərkən Strateji yol xəritəsindən yararlanmağa çalışdım. Çünki burada strateji hədəflər barəsində geniş məlumatlar veilir.

Müxtəlif ölkələrdən gələn turistlər, qonaqlar üçün regionlarımızın və bütünlükdə ölkəmizin təbliği üçün mədəni ornamentlərin (xalça, çay, misgərlik məmulatları), Naftalan neftindən bir sıra kosmetik vasitələrin istesal olunması və satışı məqsədəuyğundur. Turistlərin Azərbaycana rahat gəlməsini təmin etmək məqsədilə həyata keçirilən 49 hava uçuşlarının sayını 100-ə çatdırmaq, qatar və avtomobil yollarında infrastrukturu yaxşılaşdırmaq prioritet məsələlər sayılır. Bakı-Batumi qatar yolunun açılması, İranla əlaqələrin güclənilməsi turizm nöqteyi nəzərindən vacib amillərdir.

Bakı şəhəri üzrə turizm potensialını artırmaq, mövcud olanlardan lazımınca istifadə etmək üçün Milli Turizm Təbliğat Bürosunun yaradılması Strateji yol xəritəsində qeyd olunmuşdur. Qurum müvafiq olaraq dövlət qurumları, eləcə də digər təşkilatlarla birgə çalışacaq, hədəf sayıla biləcək bazarlarda təbliğat-təşviqat tədbirlərini yerinə yetirmək, eyni anda sahibkarlara aşağı büdcəli yerləşdirmə obyektləri üzrə lazımı seçimlərin genişləndirilməsinə, həmçinin Bakı şəhərində turizm mərkəzlərinin yaradılmasına təkan verəcəkdir. Ən əsas məsələ isə Büro dəqiq olacaq məlumatların toplanmasını, emalını, etibarlı sayıla biləcək turizm sektoru üzrə statistikasının hazırlanmasını təmin edəcəkdir.

Ölkəmizdə təşrif buyuran turist sayını, eləcə də bu sahədə cəlbediciliyi artırmaq üçün Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətindən də istifadə etmək məqsədə uyğundur. Belə ki, müvafiq rayonlarda kiçik və orta səviyyəli mexmanxana, qonaqlama yerlərinin inşası üçün sahibkarlara yardım olunması təklif edirlir. Eləcə də qeyd edilən fonddan hər il müəyyən miqdar vəsaitin turizm sektoru üçün ayrılması təkmil məsələlərdən biridir. Dissertasiyamın bəzi hissələrində ölkəmizdə olan milli parklar haqqında məlumat vermişəm. Ancaq ki, adıçəkilən obyektlərin zəngin olan rekreasiya ehtiyatlarından istifadəni təkminləşdirmək lazımdır. Belə ki, orada ov turizmi, ekoturizm üçün potensial vardır. Onu da qeyd edək ki, Gürcüstan ərazisində 90-a yaxın milli park vardır ki, həmin ərazilərin turizm cəlbediciliyi Respublikamızdan qat-qat çoxdur. Eləcə də yaxın gələcəkdə Şamaxı ərazisində Safari parkının yaradılması nəzərdə tutulur ki, bu layihədən də ilk öncə kənd evi sakinləri, turistlər faydalanacaqlar.

Problemlərdən danışarkən dolğun informasiya bazasının olmaması da bu sektor üçün əngəllərdən biridir. Bölgələrmiz üzrə ziyarət edən, gələn qonaqların sayını, onların yerləşmə səviyyəsini, hansı miqdar vəsait xərclədiyini, qalmaq müddətini dolğun göstərən vahid informasiya sisteminin işlənib hazırlanması vacib sayılır. Lazımlı sayılan informasiyaların rus, ingilis, fars, ərəb, türk dillərində hazırlanması ilkin mərhələ üçün kafi sayıla bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. F.İ.Qurbanov "Azərbaycanda Turizmin inkişaf problemləri", Bakı-2007 Adiloğlu nəşriyyatı .
2. Afina Abdullayeva "Mədəniyyətşünaslıq üzrə EMM Mədəni İrs şöbəsinin əməkdaşı Mədəniyyət", 2009: S. 4.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). "Respublika" qəzeti, 13 fevral 2004-cü il.
4. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Qanunvericiliyi toplusu. I cild, Bakı: "Avrasiya press", 2011,521 s.
5. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. "Respublika" qəzeti, 7 fevral 2009-cu il.
6. Abadov M.K "Azərbaycan turizmi və onun inkişaf problemləri", Bakı-2014, səh 248
7. Azərbaycanda Turizm 2009, statistik məcmuə;
8. Azərbaycanın Milli Parkları. Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2007.
9. B.Ə.Bilalov, Gülalıyev Ç.G (2015) "Turizmin Əsasları " Bakı, " QHT". 496 səh
10. Budaqov B. Azərbaycanın təbiət abidələri. Bakı, 1990, 268 s.
11. Dərgahov V.S. (2008) "Rekreasiya-turizm ehtiyatları" Bakı, "MBM". – səh
12. Dövlət Statistika Komitəsinin illik məcmuəsi – 2018.
13. Ə.Q. Əlirzayev "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı 2011; səh 529
14. Əlirzayev Ə.T və Aslanova S.İ. "Turizmin inkişafının sosial iqtisadi problemləri", Bakı 2006.
15. Həsənov A.T "Regional turizm komplekslərinin inkişaf strategiyasının formalaşdırılması", Gəncə 2016: 290s

16. İ.Hüseynov və N. Əfəndiyeva “Turizm əsasları”. Bakı 2007, səh 442
17. Qasımov M.S. “Abşeron yarımadası əhalisinin rekreasiya təminatı”, “Qismət”, Bakı-2007, 328 s.
18. Məmmədov E. “Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regiobal xüsusiyyətləri”, Bakı 2013: 145s
19. Məmmədov E.Q. “Azərbaycanda turizm bazarinin formalaşmasi və idarə olunmasının regional xüsusiyyətləri” i.f.d.dis. Bakı-145 səh.
20. Müseyibov M.A “Azərbaycanın fiziki coğrafiyası”, Bakı 1998. Maarif nəşriyyatı. səh 293
21. Rekreasiya-turizm ehtiyatları. Bakı, 2003.
22. Səfərov R. və Həsənov T. “Azərbaycanın turizm potensialı və turizm etkiliklərinin dəyərləndirilməsi”, Konya, 2006
23. Soltanova H.B. Azərbaycan Respublikası regionlarında turizmin inkişafının aktual problemləri. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi problemləri. Bakı: 2005, səh 346
24. Talıbov S.Ə. “Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun rekreasiyaturizm ehtiyatlarından müalicə-sağlamlıq turizmində istifadə imkanları” // Bakı Universitetinin Xəbərləri, Təbiət elmləri seriyası №1. Bakı: Bakı Universiteti, 2015.s. 157-164

## Xarici dildə

1. Alpaslan Usal və Saime Oral. “Turizm Pazarlaması”, İzmir-2001, s.338
2. Başkol K. Turizm coğrafiyası. İzmir 1998, 139s
3. Denker B. “Yerləşmə coğrafiyası”. Ankara 1994, 137s

1. Азар В. И. “Экономика и организация туризма”. 1993.
2. Александрова А. Ю. “Меджународный туризм”. 2001.
3. Babkin A.V “Xüsusi turizm növləri”, feniks-2008; səh252

4. Балабанов И.Т. və Балабанов А.И. “Экономика туризма”, М.: «Финансы и статистика», 2003, 116с.
5. Ильина Е.Л. “Деятельность туристских агентств: Туристский рынок и предпринимательство”,2004, 64 с
6. Сергеева Т. К. “Экологический туризм”, 2004.
7. Храбовченко В. В. “Экологический туризм”, 2003.

1. Denker B. “Yerləşmə coğrafiyası”. Ankara 1994, 137s
2. Loyko O.T “Turizm və otel sənayesi”, TPU Yanıyevi, səh 152
3. Smith Valene L. və Eadington William R. “Tourism Alternatives”. London, John Wiley & Sons, 1994.

## İnternet resursları

**1.** Eco.gov.az
**2.** https:static.president.az
**3.** Kayzen.az
**4.** www.arxiv.mtk.az
**5.** www.stat.gov.az
**6.** www.tourism.edu.az
**7.** https:www.azerbaijans.com
**8.** http:www.anl.az
**9.** www.wikipedia.az

# ƏLAVƏLƏR

### əlavə 1. Azərbaycanın əsas sağlamlıq məkanları




| Naftalanda olan yerləşdirmə vasitələri | Otaq sayı | Lüks [2] |
|---|---|---|
| Çinar Hotel & Spa Naftalan | 170 | ✓ |
| Sehrli Naftalan | 120 | |
| Naftalan Hotel By Rixos | 95 | ✓ |
| Naftalan İstirahət və Sağlamlıq Mərkəzi | 81 | |
| Qarabağ kurort və spa | 41 | ✓ |
| Möcüzəli Naftalan | 41 | |
| Şəfa vannaları | 28 | |
| Naftalan Sanatoriya Kurort Birliyi | 26 | |
| Naftalan Əlilləri Bərpa Mərkəzi | 12 | |
| Ağ bina | 10 | |

**Mənbə**: Naftalanda mehmanxana sifarişi təklif olunan internet saytları

### Əlavə 2. Azərbaycan Respublikasının xəritəsi və ölkə ərazisində yerləşən əsas turizm bölgələri




**Mənbə:** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

## Cədvəllərin siyahısı

Cədvəl 1. Turizm-Rekreasiya ehtiyatlarının təsnifatı ….................................. 11
Cədvəl 2. Su anbarları.............................….................................................. 20
Cədvəl 3. Swot təhlil cədvəli.……..................................................................... 79